RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 226 (9105) BAZAR, 16 oktyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Zəfərin Füzuli zirvəsi

**Vətən müharibəsinin 21-ci günü bu şəhərin azad olunması ilə "keçilməz Ohanyan" mifi darmadağın edildi**

→ 4




# İlham Əliyev Makronu yerində oturtdu

## Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana



Hörmətli cənab Prezident.

Əziz Qardaşım.

Bartın vilayətindəki mədəndə baş vermiş partlayış nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması xəbəri bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

*Allah rəhmət eləsin!*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2022-ci il*

## İlham Əliyev "Azərbaycan Elm Fondunun Nizamnaməsi"ni təsdiq etdi



→ 2

## Prezidentin Astana səfəri də ölkəmiz üçün əhəmiyyətli oldu

### İlham ƏLİYEV: "Orta Dəhliz zamanın hökmüdür"

Məlum olduğu kimi, Prezident İlham Əliyev bu il oktyabrın 13-də Astanada keçirilən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 6-cı Zirvə Toplantısının plenar iclasında və oktyabrın 14-də Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasında iştirak etmişdir. Azərbaycan Prezidenti həmçinin bir sıra dövlət başçısı ilə görüşlər keçirmişdir. Orada müzakirə olunan iqtisadi məsələlərin spektri diqqəti cəlb edir.

Bu görüşlərdə İlham Əliyev daha da mükəmmələşən lider keyfiyyətlərini ortaya qoydu. O, dünyanın ən aparıcı islahatçı lideri kimi təfəkkürünün və danışıqları aparmaq bacarığının yeni bir mərhələyə yüksəldiyini hamıya nümayiş etdirdi. Azərbaycan Prezidenti ən qərəzli rəqibini də əməkdaşlığa cəlb edə bilir, ən güclü müttəfiqini də dosta çevirməyi bacarır. Azərbaycan Prezidenti artıq ölkənin nüfuzunu və müstəqilliyini qorumağa qadir olan və ən mürəkkəb siyasi məsələlərin həllini asanlıqla tapa bilən liderdir. O, görünməmiş bir məharətlə incə diplomatiya yeridir, ən mürəkkəb fikrin də asan həllini təqdim etməyi bacarır.

→ 3

## Fransa Prezidentinin təxribatçı açıqlamaları riyakarlıqdan başqa bir şey deyil

**Artıq başa çatmış Qarabağ probleminin yoluna qoyulması ilə bağlı istiqamətlər BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrində öz əksini tapmışdı.**

Həmin qətnamələrdə Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal çıxması tələb olunsa da, 30 ilə yaxın bir dövrdə bu tələb yerinə yetirilmədi. Bu tələbin yerinə yetirilməməsində işğalçının əlini-qolunu açan səbəblər çox idi. Bunlardan biri ATƏT-in Minsk qrupunun mövqeyi, daha dəqiq desək, BMT TŞ qətnamələrinin tələblərinin yerinə yetirilməsini Ermənistandan tələb etməməsi idi.

### Azərbaycan Ermənistanın havadarlarını da məğlub etdi

44 günlük Vətən müharibəsində Azərbaycan Minsk qrupunun edə bilmədiyini, yaxud etmək istəmədiyini güc yolu ilə gerçəkləşdirdi. 30 ilə yaxın kağız üzərində qalan qətnamələrin tələbləri "dəmir yumruq"la, Ermənistanın döyüş meydanında cəzalandırılması ilə icra olundu.

Bu müharibənin, Azərbaycanın öz milli haqqını güc yolu ilə təmin etməsinin ortaya qoyduğu başqa bir reallıq isə ATƏT-in Minsk qrupu kimi Fransanın maskasının tam cırılması oldu. Bu ölkənin ermənipərəst siyasət yürütməsi əvvəldən də məlum idi. Lakin müharibə günlərində başda Prezident Makron olmaqla Fransanın siyasi dairələri açıq şəkildə Ermənistanın müdafiəsinə qalxdılar.

→ 3

## Sosial mediada təhqir və böhtan hüquqi məsuliyyət yaradır

Türkiyədə internet mediada yalan və dezinformasiya xarakterli məlumatların yayılmasına qarşı qanunun tələbləri sərtləşdirilib. Qanuna əsasən, təşviş, qorxu və çaxnaşma yaratmaq məqsədilə çaşdırıcı məlumat yayanları həbs cəzası gözləyir. Bununla yanaşı, internet saytlarına bir sıra yeni qaydalar tətbiq olunub.

Dezinformasiya xarakterli məlumatların cəmiyyətdə panikaya, çaşqınlığa səbəb olduğu özünü daim göstərir. Yaş kateqoriyasından asılı olmayaraq hər kəsin sosial mediaya çıxışının olması isə problemlərin əhatə dairəsini genişləndirir.

→ 3

## Yoxsulluğun azalması davamlı inkişafın təzahürüdür

17 oktyabr 1992-ci ildən etibarən dünyada Ümumdünya Yoxsulluqla Mübarizə Günü kimi qeyd edilir. Bu, yoxsulluğa qarşı milli, regional və beynəlxalq səviyyələrdə aparılan mübarizəni stimullaşdırmaq məqsədi daşıyır. Yoxsulluğun aradan qaldırılması həm humanistlik prinsipləri baxımından, həm də gələcək nəsillərin fiziki və intellektual potensialının qorunması üçün vacibdir. Yoxsulluqla mübarizə dövlətimizin sosial-iqtisadi siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. Respublikamızda həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində ötən 19 ildə yoxsulluğun səviyyəsi əhəmiyyətli dərəcədə azalaraq 49 faizdən 5 faizə düşüb.

→ 8



## Qərbin görmək istəmədiyi erməni vandallığı

→ 5

## "Azərbaycan Elm Fondu" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiqi və "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 aprel tarixli 2818 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Elm Fondu" publik hüquqi şəxsin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri

**Müşahidə Şurasının üzvləri**

Azərbaycan Respublikasının elm və təhsil naziri
Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti
Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri.

2. "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 aprel tarixli 2818 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 4, maddə 597) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2022-ci il*

## "Azərbaycan Elm Fondu" publik hüquqi şəxsin yaradılması və "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 19 fevral tarixli 223 nömrəli Fərmanının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə elmi fəaliyyətin inkişafının, elmin müxtəlif sahələrində aparılan elmi araşdırmaların səmərəliliyinin artırılmasının, o cümlədən elmi tədqiqatların stimullaşdırılmasının təmin edilməsi, bu sahədə dövlət dəstəyinin və dövlət idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun əsasında "Azərbaycan Elm Fondu" publik hüquqi şəxs yaradılsın.

2. "Azərbaycan Elm Fondunun Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Elm Fondu (bundan sonra - Fond) Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun hüquqi varisidir, onun hüquq və öhdəlikləri, habelə əmlakı Fonda keçir.

4. Fondun nizamnamə fondu 4157866,0 (dörd milyon yüz əlli yeddi min səkkiz yüz altmış altı) manatdır.

5. Müəyyən edilsin ki:

5.1. Fond təbiət, texniki, humanitar və ictimai sahələr üzrə fundamental, tətbiqi və eksperimental tədqiqatların və digər elmi tədbirlərin qrant şəklində məqsədli maliyyələşdirilməsi sahəsində fəaliyyət göstərən publik hüquqi şəxsdir;

5.2. Fondun fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası həyata keçirir;

5.3. Fondun fəaliyyətinə cari rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor həyata keçirir.

6. Fondun təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

6.1. Azərbaycan Respublikasının Prezidentinə:

6.1.1. Fondun nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

6.1.2. idarəetmə orqanlarının yaradılması, idarəetmə orqanları rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

6.1.3. nizamnaməsində nəzərdə tutulmayan məqsədlər üçün Fondun mənfəətinin dövlət büdcəsinə köçürülməsi barədə qərar qəbul edilməsi;

6.1.4. Fondun ləğvi və yenidən təşkili;

6.2. Fonda:

6.2.1. Fondun strukturunun, əməyin ödənişi fondunun, işçilərin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiqi;

6.2.2. bu Fərmanın 6.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

7.1. bu Fərmanın 7.2-ci bəndi nəzərə alınmaqla, Fond dövlət qeydiyyatına alındığı gündən, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun balansındakı dövlət əmlakının Fondun balansına verilməsini iki ay müddətində təmin etsin;

7.2. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyələşdirdiyi qrant layihələri çərçivəsində satın alınmış və həmin layihələr bitdikdən sonra onun balansında qalan əmlakın təyinatı üzrə səmərəli istifadəsi ilə bağlı zəruri tədbirlər görsün;

7.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Fondun saxlanılması və fəaliyyəti üçün tələb olunan vəsaiti hər il üçün dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

9. Fond:

9.1. dövlət qeydiyyatına alınması üçün bu Fərmanın qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin;

9.2. Fondun strukturunun, əməyin ödənişi fondunun, işçilərin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin;

9.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

10. "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 19 fevral tarixli 223 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 87; 2014, № 11, maddə 1404; 2017, № 7, maddə 1361; 2018, № 7 (I kitab), maddə 1451) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2022-ci il*

## Nazirlər Kabinetində Bakı şəhərində ictimai nəqliyyatın fəaliyyətinin tənzimlənməsinə dair işçi müşavirə keçirilib

Oktyabrın 14-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə Bakı şəhərində nəqliyyatın vəziyyətinə dair işçi müşavirə keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə oktyabrın 3-də keçirilmiş geniş müşavirə zamanı ictimai nəqliyyatın fəaliyyətinin tənzimlənməsi ilə bağlı verilmiş tapşırıqların icra vəziyyəti müzakirə olunub.

Müzakirə zamanı ötən müşavirədə verilmiş tapşırığa əsasən hazırlanmış, Bakı şəhərində avtomobil nəqliyyatı sahəsində mövcud olan və qısa müddət ərzində həlli mümkün sayılan problemlərə dair Tədbirlər Planının ilkin layihəsi təhlil edilib.

Tədbirlər Planına yolların buraxılış imkanlarının artırılması, ictimai nəqliyyatın daşıma potensialının genişləndirilməsi, yollarda nəqliyyatın hərəkətinin tənzimlənməsi və başqa məsələlər daxildir.

Müşavirədə habelə ictimai nəqliyyat sahəsində struktur islahatlarının davam etdirilməsi, inzibati, infrastruktur və təşkilati tədbirlərlə bağlı məsələlər müzakirə olundu və konkret zaman ərzində yerinə yetirilməli olan tapşırıqlar verilib.

## Baş nazir Əli Əsədov Türkiyənin vitse-prezidenti Fuat Oktaya başsağlığı verib




**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasının vitse-prezidenti Fuat Oktaya başsağlığı məktubu ünvanlayıb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Ə.Əsədov Türkiyənin Bartın vilayətində yerləşən daş-kömür mədənində baş vermiş partlayış nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbərdən kədərləndiyini bildirib, bu ağır faciə ilə əlaqədar Türkiyənin vitse-prezidenti F.Oktaya, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib, xəsarət alanların tezliklə sağalmasını arzulayıb.

## Milli Məclisin Sədri Sahibə Qafarova TBMM Sədri Mustafa Şentopa başsağlığı verib




**Oktyabrın 15-də Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopa başsağlığı verib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin spikeri Mustafa Şentopa ünvanladığı məktubda Türkiyənin Bartın vilayətinin Amasra rayonunda mədəndə baş vermiş partlayış nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbərdən kədərləndiyini bildirib. O,TBMM sədrinə, həlak olanların ailələrinə və yaxınlarına Azərbaycan Respublikası Milli Məclisi adından başsağlığı verib, xəsarət alanlara şəfa diləklərini ifadə edib.

***"Azərbaycan"***

## Müdafiə naziri döyüş hazırlığı üzrə məşğələləri izləyib




Oktyabrın 15-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti təlim mərkəzlərindən birində olublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müdafiə naziri təlim mərkəzinin yeni istifadəyə verilmiş ümumqoşun atış meydanında hərbi qulluqçuların atəş hazırlığı üzrə keçirilən məşğələlərini izləyib.

Məruzə edilib ki, atış meydanında şəxsi heyətin döyüş texnikası və müxtəlif növ atıcı silahlardan atış çalışmalarının, həmçinin atəş hazırlığı üzrə normativlərin yerinə yetirilməsi üçün atış sahələri və taktiki siniflər mövcuddur.

Müdafiə naziri hərbi qulluqçuların vəzifə borclarının dərindən mənimsənilməsi, atəş hazırlığı üzrə normativlərin dəqiq yerinə yetirilməsi, o cümlədən döyüş hazırlığının daha da yüksəldilməsi istiqamətində müvafiq tapşırıqlar verib.

## Xarici QHT nümayəndələri Edilli kəndində aşkarlanmış kütləvi məzarlıqda olublar

Oktyabrın 15-də xarici qeyri-hökumət təşkilatlarının nümayəndələri Xocavənd rayonunun Edilli kəndində aşkarlanmış növbəti kütləvi məzarlığı ziyarət ediblər.



AZƏRTAC xəbər verir ki, Çexiya, Polşa, Finlandiya, Türkiyə, Estoniya, Serbiya və Rumıniyadan olan səfər iştirakçıları Ermənistan silahlı qüvvələrinin törətdikləri müharibə cinayətlərinin şahidi olublar.

Bildirilib ki, bu, Edilli kəndində ermənilərin azərbaycanlıları vəhşicəsinə öldürərək kütləvi basdırdıqları növbəti məzarlıqdır. Aşkarlanmış məzarlıqda 12 nəfərin qalıqları üzə çıxıb.

Diqqətə çatdırıb ki, əşyalarla birlikdə aşkarlanan skeletlərin əllərinin, ayaqlarının məftil və kəndirlə bağlandığı məlum olub. Aşkar edilmiş qalıqlar Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş, bu günədək taleyi naməlum olan azərbaycanlılara məxsusdur.

Qeyd edilib ki, geyim və əşyalarından həmin şəxslərin hərbçi olduqları reallığı azərbaycanlı hərbi əsirlərin işgəncə verilərək qətlə yetirilməsi ilə bağlı bir çox ifadələri sübut edir.

## Adrian PEXOTA: "Edillidə baş vermiş hadisələr Cenevrə Konvensiyasına ziddir"

"Edillidə gördüklərimdən çox təsirləndim və baş vermiş hadisələrə kədərlənirəm. Bu faciəni sözlə təsvir etmək mümkün deyil".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Edillidə aşkar olunmuş kütləvi məzarlığı oktyabrın 15-də ziyarət edən Polşa Demokratlar Assosiasiyasının rəhbəri Adrian Pexota söyləyib.

İnsanların diri-diri basdırılması barədə danışan A.Pexota deyib ki, bütün bunlar beynəlxalq hüquqa, o cümlədən Cenevrə Konvensiyasına ziddir: "Bu, bir daha təkrarlanmamalıdır. Mən bu cür təcrübələrə qarşıyam. Otuz il bundan əvvəl burada baş vermiş bu cür hadisələri görəndə ürəyim ağrıyır. İnanıram ki, azərbaycanlılar üçün bu ağrı hələ də təzədir, aktualdır. Onlar üçün çox kədərlənirəm".

Assosiasiya rəhbərinin sözlərinə görə, ermənilərin Polşada bəzi təbliğat xarakterli hərəkətləri olub və bu, çox mənfi prosesdir. "Hesab edirəm ki, biz reallığı göstərməliyik. Mən mühazirələr də daxil olmaqla, tədbirlər görməyi planlaşdırıram. Ölkəyə geri qayıdanda universitetimizdə mühazirə oxumağı, burada baş verənlərin fotolarını göstərməyi və gözlərimlə gördüklərimi danışmağı planlaşdırıram. Ermənistanın aldadıcı təbliğatına son qoyulmalı və Polşada insanlara müharibə reallığı, erməni əsgərlərin qəddarlığı göstərilməlidir", - deyə Adrian Pexota qeyd edib.

## Adnan FİŞENK: "Edillidə aşkarlanmış kütləvi məzarlığı görəndə dəhşətə gəldim"

"İşğaldan azad olunmuş torpaqlara ilk dəfə səfər edirəm. Edillidə aşkarlanmış kütləvi məzarlığı görəndə dəhşətə gəldim".



Bu sözləri AZƏRTAC-a açıqlamasında Avropa Jurnalistlər Assosiasiyasının rəhbəri Adnan Fişenk oktyabrın 15-də Edillidə aşkar olunmuş kütləvi məzarlığa ziyarət zamanı söyləyib.

"Burada vəhşiliklərin ən qəddarının şahidi oluruq. Nə deyəcəyimi bilmirəm. Bunu edənlər insan ola bilməz, hətta vəhşi heyvanlar belə bu hərəkətləri etmirlər. Bu, insanlığa qarşı cinayətdir. Bu işləri görənlər ən ağır şəkildə cəzalandırılmalıdırlar", - deyə o qeyd edib.

## Stanislava ROUSOVA: "Edillidə cəsədləri tapılanlar öz vətənlərini müdafiə ediblər"



"Biz Edillidə bir müddət əvvəl baş verənlərin şahidi oluruq. Bu, çox dəhşətlidir".

Bunu Çexiya "Avropaya açılan qapılar" İctimai Birliyinin rəhbəri Stanislava Rousova oktyabrın 15-də Edillidə aşkar olunmuş kütləvi məzarlığa ziyarət zamanı AZƏRTAC-a açıqlamasında bildirib.

Edillidə baş vermiş hadisələr barədə danışan S.Rousova deyib: "Bu, çox kədərləndiricidir. İnsanların burada necə əziyyət çəkdiklərini təsəvvür edə bilmirəm. Burada cəsədləri aşkar olunanlar öz vətənlərini müdafiə ediblər. Mən vəfat edənlərin xatirəsini anmaq üçün özümlə buraya şam gətirmişəm".

## Azərbaycanın xarici işlər naziri iranlı həmkarı ilə regiondakı cari vəziyyəti müzakirə edib

Oktyabrın 15-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahian arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər iki dövlətin liderlərinin Astanada baş tutmuş görüşünün davamı olaraq bir sıra məsələlər, o cümlədən ikitərəfli gündəliyin aktual mövzuları üzrə fikir mübadiləsi aparıblar.

Tərəflər həmçinin regionda mövcud cari vəziyyəti müzakirə ediblər.

Telefon danışığı zamanı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, habelə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

## Azad olunmuş ərazilərdə mühəndis təminatı üzrə tədbirlər davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin komandanlığı ilə Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan Vətən müharibəsi nəticəsində azad olunmuş ərazilərimizdə mühəndis işləri davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələri tərəfindən nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yollar minalardan təmizlənir, mürəkkəb relyefli, o cümlədən çətin keçilən dağlıq ərazilərdə bölmələrin fəaliyyətini təmin etmək məqsədilə yeni təminat yolları çəkilir.

Mühəndis Qoşunlarının digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyəti nəticəsində mürəkkəb relyefli, o cümlədən çətin keçilən qayalıq ərazilərdə bölmələrin fəaliyyətini təmin etmək məqsədilə bu ilin oktyabr ayı ərzində 50 kilometrdən çox, ümumilikdə işğaldan azad edilmiş ərazilərdə bu günədək 1078 kilometrdən artıq yeni təminat yolları çəkilib. Bundan başqa, yeni çəkilən təminat yollarına oktyabr ayı ərzində 81 ədəd, ümumilikdə isə 1796 ədəd yol tanıtma nişanları quraşdırılıb.

Azad edilmiş ərazilərimizdə mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində oktyabrın 1-dən bu günədək olan müddət ərzində 550 hektardan çox ərazi mina və partlamamış döyüş sursatlarından tam təmizlənib.

İşğaldan azad edilmiş ərazilərdə bu günədək mühəndis-istehkam bölmələri tərəfindən 27960 hektardan çox ərazi minalardan təmizlənib. Ümumilikdə 9726 ədəd piyada əleyhinə, 2485 ədəd tank əleyhinə və 10316 ədəd partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib.

Mina təmizlənmə işlərində əsas səylər azad olunan ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib.

Azad olunan ərazilərimizdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanaraq zərərsizləşdirilməsi, eləcə də mühəndis təminatı üzrə digər zəruri tədbirlər davam etdirilir.

# İlham Əliyev Makronu yerində oturtdu

## Fransa Prezidentinin təxribatçı açıqlamaları riyakarlıqdan başqa bir şey deyil

*Əvvəli 1-ci səh.*

Makronun bütün zəngləri ədalətin təmin olunmasına deyil, işğalçının müdafiəsinə xidmət edirdi. Fransa Prezidenti və digər rəsmi şəxsləri Azərbaycanı müharibədə guya muzdlu döyüşçülərdən istifadə etməkdə, yaşayış yerlərini atəşə tutmaqda ittiham etdilər. İstəklərinə çatmadıqda, yəni Azərbaycanı öz milli haqqı uğrunda mübarizə yolundan döndərə bilmədikdə isə məsələnin BMT səviyyəsində müzakirəsinə cəhd göstərdilər. Lakin Qoşulmama Hərəkatına üzv ölkələrin sayəsində Fransanın avantürası baş tutmadı.

44 günlük müharibə dövründə Fransa Prezidenti və bu ölkənin dövlət və hakimiyyət orqanları Azərbaycana qarşı müxtəlif təzyiqlərə əl atsalar da, baş tutmamışdı. Prezident İlham Əliyev sübut etdi ki, heç bir siyasi təzyiq onu yolundan döndərə, torpaqlarımızın işğaldan azad edilməsinin qarşısını ala bilməz. Həm E.Makronun, həm də digər fransız siyasət dairələrinin niyyətləri gözlərində qaldı və Azərbaycan işğal altındakı torpaqlarını azad edərək Ermənistanın kapitulyasiyasına nail oldu.

Müharibədən sonra da Fransanın siyasi dairələri Azərbaycan torpaqlarının işğaldan azad olunması faktı ilə barışa bilmədilər. Bunu Fransanın siyasi dairələrinin açıqlamaları, üçtərəfli Bəyanata qarşı çıxmaları təsdiq edirdi. 2020-ci il noyabrın 25-də Fransa senatında Dağlıq Qarabağdakı separatçı rejimin tanınması ilə bağlı qətnamənin qəbulu bir daha bu ölkənin Ermənistanın işğal siyasətinə dəstək verməsinin aydın sübutu oldu. Belə bir qətnamənin qəbulu beynəlxalq hüquqa olan hörmətsizliklə yanaşı, Fransanın siyasi rüsvayçılığı idi. Bu, Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxan, üçtərəfli Bəyanata qısqanclıqla yanaşan Fransa parlamentinin təxribatçı və utancverici addımı idi. Bu baxımdan Vətən müharibəsində Azərbaycan həm də Fransaya qalib gəldi.

Ümumiyyətlə, İkinci Qarabağ müharibəsi başlayan gündən E.Makronun davranışları və açıqlamaları göstərdi ki, o, Avropanın ən nüfuzlu dövlətlərindən birinə başçılıq etmək üçün tələb olunan keyfiyyətlərə malik deyil. Ona görə vaxtilə De Qoll kimi şəxsiyyətin lideri olduğu bu ölkənin nüfuzu artıq ciddi şəkildə zədələnib.

### Fransa Prezidenti ictimaiyyəti çaşdırmağa çalışır

Bütövlükdə Fransanın aşkar ermənipərəst mövqeyi Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqların nə üçün nəticəsiz qaldığını göstərdi. Müharibə günlərində və sonrakı dövrdə baş verənlər təsdiq edir ki, Fransa münaqişənin dondurulmuş vəziyyətdə qalmasına səy göstərməklə, Azərbaycanın işğal olunmuş ərazilərinin Ermənistana birləşdirilməsində maraqlı olub. Fransanın niyyətini gözündə qoyan Azərbaycan isə Vətən müharibəsindən sonra da öz milli maraqlarını qətiyyətlə təmin edir. Həm Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur, həm də Ermənistan üçtərəfli bəyanatların öhdəliklərini yerinə yetirməyə məcbur edilir.

Oktyabrın 6-da keçirilən Praqa görüşləri, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıması ölkəmizin Vətən müharibəsindən sonra növbəti diplomatik qələbəsi oldu. Onu da qeyd edək ki, Praqa görüşü həm də E.Makronun vasitəçiliyi ilə baş tutmuşdu. Lakin görünən odur ki, Fransa rəhbərliyi Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması ilə razılaşmaq istəmir, yaxud bu prosesdə Azərbaycanın uğurlarını həzm edə bilmir. Çünki Fransa Prezidentinin Praqa görüşündən 6 gün sonra verdiyi müsahibəni başqa cür şərh etmək mümkün deyil. Praqada vacib razılaşmaların əldə edilməsindən sonra E.Makronun Azərbaycana qarşı yönələn açıqlamaları tamamilə qəbuledilməz, eyni zamanda Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması prosesinə qeyri-adekvatdır.

Oktyabrın 14-də Astanada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasında bu barədə danışan Prezident İlham Əliyev Fransa Prezidentinin faktları manipulyasiya edərək dünya ictimaiyyətini çaşdırmağa səy göstərdiyini bildirib: "Lakin Azərbaycanın nümayiş etdirdiyi xoş mərama baxmayaraq, Praqadakı görüşdən, demək olar, bir həftə sonra Fransa Prezidenti təhqiramiz, qəbulolunmaz, yalan və təxribat xarakterli bəyanatlarla çıxış etdi. Bu bəyanatlar mətbuatda var, hər kəs onları görə bilər. Bu bəyanatlarda o, Azərbaycanı dəhşətli müharibə törətməkdə günahlandırıb, bununla da faktları manipulyasiya edərək Fransa və dünya ictimaiyyətini çaşdırmağa səy göstərib".

Azərbaycanın bölgədə sülh, sabitlik və inkişafı təmin etmək, beynəlxalq hüquq prinsiplərinə hörmət əsasında münasibətləri normallaşdırmaq cəhdləri qarşılığında Fransanın birtərəfli mövqeyi və əsassız ittihamları bu ölkənin vasitəçilik səylərinin yenidən nəzərdən keçirilməsini labüd edir. "Böyük ölkənin prezidentinə küçə leksikonundan istifadə etməyin nə dərəcədə siyasi nəzakətə uyğun olmasını, qoy, Fransa ictimaiyyəti müəyyən etsin. Biz isə öz tərəfimizdən belə bəyanatları qəti surətdə pisləyirik, rədd edirik və bundan sonra Fransa hökumətinin belə münasibəti çərçivəsində Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması işində Fransanın hər hansı rol oynamasının heç bir mümkünlüyünü görmürük" - deyə Prezident İlham Əliyev bildirib.

Prezident İlham Əliyevin dediyi kimi, Fransanın Azərbaycan və Ermənistan arasında münasibətlərə heç bir aidiyyəti yoxdur. Bu ölkənin mövqeyinin, rəhbərliyinin nə deməsinin isə Azərbaycan üçün əhəmiyyəti yoxdur. Torpaqlarını işğaldan güc yolu ilə azad edən Azərbaycan yaranmış yeni reallıqlar fonunda da öz milli maraqlarını qətiyyətlə təmin edəcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*



# Prezidentin Astana səfəri də ölkəmiz üçün əhəmiyyətli oldu

## İlham ƏLİYEV: "Orta Dəhliz zamanın hökmüdür"

*Əvvəli 1-ci səh.*

Oktyabrın 12-də Azərbaycan Prezidenti Astanada Pakistanın Baş naziri Şahbaz Şərif ilə görüşündə müzakirə olunan vacib mövzularla yanaşı, eyni müstəvidə aktuallıq kəsb edən iqtisadi məsələləri də müzakirə etdi.

Bir ay əvvəl Səmərqənddə görüşən iki lider qarşılıqlı səfərlərin reallaşmasının və iki dövlət arasında daha sıx iqitisadi əlaqələrin qurulmasının zəruriliyini məmnunluq hissi ilə dilə gətirdi. Dövlətimizin başçısı Səmərqənd görüşünü minnətdərlıq hissi ilə xatırlayan Baş nazir Şahbaz Şərifə Pakistana səfər etmək niyyətində olduğunu bildirdi və onu da ölkəmizə səfərə dəvət etdi. Şahbaz Şərif Pakistan xalqına göstərdiyi yardıma görə İlham Əliyevə minnətdarlığını bildirdi, hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini davamlı şəkildə dəstəklədiyini bəyan etdi. Müzakirə olunan məsələlər dünyada baş verən siyasi gərginliklərlə nə qədər bağlı olsa da, liderlər iqtisadi mövzulara da ciddi yanaşdılar və bir sıra vacib məsələlərə münasibətlərini sərgilədilər. Görüş əsnasında Azərbaycan-Pakistan-Türkiyə üçtərəfli əməkdaşlığının önəmi vurğulandı. Bu çərçivədə qarşılıqlı iqtisadi əlaqələrin daha geniş aspektləri əhatə etməsinin zərurəti qeyd olundu. Azərbaycanla Pakistan arasında hərbi-texniki, ticarət, enerji, kənd təsərrüfatı, nəqliyyat-logistika sahələrində əməkdaşlığın dərinləşdirilməsi məsələləri araşdırılıdı, bu istiqamətdə aparılan müzakirələrə daha diqqətlə yanaşıldı.

Azərbaycan və İran prezidentlərinin rəsmi görüşündə Seyid İbrahim Rəisi ölkəmizin öz qonşuları arasında cox vacib tərəfdaş olduğunu bildirməklə yanaşı, iqtisadi-ticari əlaqələrin səviyyəsindən məmnunluğunu ifadə etdi. Bu əməkdaşlığın hərtərəfli inkişaf etdirilməsində ciddi niyyətinin olduğunu dilə gətirdi. Görüşdə o da qeyd olundu ki, İranla Azərbaycan arasında Ağbənd körpüsünün açılışının həm rəmzi, həm də böyük praktiki əhəmiyyəti danılmazdır.

Bu səfər çərçivəsində İlham Əliyevin Kasım-Jomart Tokayev ilə görüşü də xüsusi maraq kəsb edir. Qazaxıstan Prezidenti dövlətimizin başçısına ilk növbədə Astanaya gəldiyinə və Zirvə Toplantısının işində iştirakına, yekun nəticələrə nail olunmasına verdiyi töhfəyə görə minnətdarlığını bildirdi. Bununla da Tokayev Azərbaycan liderinin Astanadakı xüsusi statusunu dilə gətirdi və bunu yüksək dəyərləndirdiyini etiraf etdi. Qazaxıstan Prezidenti eyni zamanda özünün Bakıya səfərinin də xaricdə siyasi, iqtisadi dairələrin diqqətini cəlb etdiyini vurğulamış, Azərbaycanla müttəfiqliyə və strateji tərəfdaşlığa sadiq qalacağını belə qeyd etmişdir: "Azərbaycan təkcə öz regionunda deyil, həm də daha geniş coğrafi miqyasda çox böyük rol oynayır. Düşünürəm ki, bizim ortaq cəhətlərimiz çoxdur və ən müxtəlif sahələrdə əməkdaşlığı inkişaf etdirmək əzmindəyik. Biz bu barədə Bakıda ətraflı danışmışıq".

Gündəlikdə Orta Dəhlizin inkişafı məsələsinə xüsusi önəm verildi. Bu məsələ Türkiyə ilə də müzakirə olunmuş və bu iş formatı artıq qəbul edilmişdir. Məsələ burasındadır ki, Artıq Orta Dəhliz adlandırılan Transxəzər marşrutu barədə Tokayev dəfələrlə danışmış, qazax mətbuatında isə ekspertlər Azərbaycanı Qazaxıstan üçün Avropaya açılan qapı kimi dəyərləndirmişlər.

İlham Əliyev isə Qazaxıstan Prezidentinin Bakı səfərindən sonra boy verib ucalan əməkdaşlıq konturlarından danışmışdır: "Zənnimcə, Sizin səfərinizdən sonra artıq yaxşı nailiyyətlər, nəticələr var, - biz indi bu barədə danışacağıq, - həm nəqliyyat sahəsində, həm də digər sahələrdə. Orta Dəhlizin inkişafı ilə bağlı məsələlər zamanın hökmüdür. Yaxşı ki, həm Qazaxıstan, həm Azərbaycan buna hazır idi, çünki bizim ölkələrdə çox müasir nəqliyyat infrastrukturu yaradılıb ki, bu, çox böyük həcmdə yükləri artıq bu gün daşımağa imkan verir. Lakin düşünürəm ki, gələcək infrastruktur planlarımızın əlaqələndirilməsi zamanı biz Transxəzər marşrutunun buraxılış qabiliyyətinin genişləndirilməsi üzrə bundan sonrakı işləri sinxronlaşdıra bilərik. Bu, bizim ölkələrin və xalqların marağında, uzunmüddətli maraqlarda, qonşuluğumuzdakı ölkələrin maraqlarında olacaq. Yəni bu mövzunun çox ciddi davamı olacaq".

Görüşdə danışılanlardan savayı iki dövlət arasında energetika, nəqliyyat-logistika sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu, həmçinin Azərbaycan-Türkiyə-Qazaxıstan üçtərəfli formatında keçirilən görüşlərin davam etdirilməsi barədə fikir mübadiləsi aparıldı.

İlham Əliyevin Rusiya Prezidenti ilə görüşündə Putin çox müxtəlif istiqamətlər üzrə kifayət qədər geniş qarşılıqlı fəaliyyət mövcud olduğunu, Azərbaycanın Rusiya üçün aparıcı iqtisadi-ticari tərəfdaşlarından biri kimi qaldığını və əmtəə dövriyyəsinin artdığını qeyd etdi: "Məncə, ötən il 14 faiz artıb, bu ilin ilk 7 ayı ərzində 7 faizdən çox artıb. Bizim iqtisadi operatorlar Azərbaycan iqtisadiyyatına 4,5 milyard dollar sərmayə yatırıblar". Ən maraqlısı Rusiya Prezidentinin etirafı oldu: "Hökumətlərarası Komissiyanın həmsədrləri müntəzəm görüşürlər. İşlər Sizin təklif etdiyiniz plan üzrə gedir. Düşünürəm ki, 2024-cü il də daxil olmaqla, Sizin tərəfinizdən təklif olunan bir sıra perspektivli, maraqlı layihələr üzrə gedir. Təbii ki, biz regionda vəziyyətin nizamlanması ilə bağlı məsələləri də həmişə diqqətdə saxlayırıq".

Prezident İlham Əliyev Putinlə görüşündə ən mürəkkəb siyasi məsələlərin sadə diplomatik həllini necə məharətlə apara bildiyini belə nümayiş etdirdi: "Siz qeyd etdiniz, təsdiqləmək istəyirəm ki, iqtisadi-ticari əlaqələr üzrə əmtəə dövriyyəsində artım var. İndi müəyyən etdiyimiz və bundan əvvəlki görüşlərdə razılaşdırdığımız layihələr bizə qarşılıqlı ticarəti daha da artırmaq imkanı verəcək. Həmçinin nəqliyyat, energetika sahələrində və humanitar sahədə əməkdaşlıqla bağlı məsələlər. Biz bütün istiqamətlər üzrə müsbət dinamika görürük. Lakin, əlbəttə, hər bir görüşdə biz regionumuzda təhlükəsizliyə, sülhə nail olmaq məsələlərindən yan keçmirik. Biz bu gün bu barədə də danışacağıq. Biz uzunmüddətli sülhə hədəflənmişik. Biz hesab edirik ki, nəhayət, bu sülhə nail olmaqdan ötrü öz tərəfimizdən kifayət qədər konstruktiv tezislər təklif etmişik".

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

# Ərəb mediası Prezident İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının iclasında çıxışını geniş işıqlandırıb

Ərəb mediası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Astanada MDB Dövlət Başçıları Şurasının iclasındakı çıxışından əsas məqamları oxucuların diqqətinə çatdırıb.

AZƏRTAC xəbər verir ki, Misir, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Suriya və Liviyanın qəzet və portallarında Prezident İlham Əliyevin regionda yaranmış vəziyyətlə bağlı MDB dövlət başçılarını məlumatlandırdığı qeyd olunub. "Darelhilal", "Almasralyoum", SANA agentliyi, "Alwasat", "Alkhaleej" və s. kütləvi informasiya vasitələrinin materiallarında Prezident İlham Əliyevin Fransa Prezidenti Emmanuel Makronun ünvanına səsləndirdiyi sərt fikirlər yer alıb. Dövlət başçısının mövqeyini əks etdirən bu fikir xüsusi vurğulanıb ki, Fransa hökumətinin yanlış və qərəzli münasibəti səbəbindən Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması işində Fransanın hər hansı rol oynaması qeyri-mümkündür.

Ərəb mediasının xəbərlərində, həmçinin Azərbaycan Xarici İşlər Nazirliyinin Fransa Prezidentinin fikirlərini pisləyən bəyanatı da yer alıb.

# "Birinci dəfə deyil ki, Ermənistan rəsmilərinin tamamilə əsassız məlumatları ilə üzləşirik"

"Biz birinci dəfə deyil ki, Ermənistan rəsmilərinin tamamilə əsassız, yalan məlumatları ilə üzləşirik. 44 günlük müharibə zamanı Ermənistan tərəfinin yalan və saxta məlumatlarla ictimaiyyəti yanıltmaq cəhdlərinin nə ilə nəticələndiyini yaxşı xatırlayırıq".



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi L.Abdullayeva Ermənistan rəsmiləri tərəfindən son günlərdə guya cari ilin 12-14 sentyabr tarixlərində baş vermiş hərbi təxribat zamanı Azərbaycan Ordusunun 400 nəfərdən çox itkisinin olması ilə bağlı səsləndirilən məlumatlarla bağlı açıqlamasında bildirib.

L.Abdullayeva qeyd edib: "Bildiyiniz kimi, 12-14 sentyabr tarixli toqquşmalarda Azərbaycan Silahlı Qüvvələrinin itkiləri ilə bağlı rəsmi məlumat Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən verilib. Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hərbi təxribatının qarşısının alınması zamanı 80 hərbi qulluqçumuz şəhid olub. Azərbaycan Müdafiə Nazirliyi, Ermənistan Müdafiə Nazirliyindən fərqli olaraq hərbi toqquşmalar zamanı həlak olan hərbi qulluqçularımız barədə məlumatı tam açıq və adbaad siyahının göstərilməsi ilə təqdim edir və bu siyahı Müdafiə Nazirliyinin internet səhifəsində yerləşdirilib. Şəhidlərimiz bizim qürur mənbəyimizdir, onların dəfn mərasimləri böyük izdihamın, ictimaiyyət nümayəndələrinin, o cümlədən dövlət rəsmilərinin iştirakı ilə keçirilir, KİV tərəfindən geniş işıqlandırılır. Bir daha vurğulamaq istərdik ki, Ermənistandan fərqli olaraq, Azərbaycan tərəfinin hərbi qulluqçularının itkiləri ilə bağlı təqdim etdiyi məlumatlar heç bir şübhə doğura bilməz.

Görünən odur ki, Ermənistan rəsmiləri yalan məlumatlar yaymaqla, manipulyasiyalar yolu ilə cəmiyyətdə mövcud olan narazılıqlara, xüsusilə də övladlarını itirən qəzəbli valideynlərə təsir etmək istəyir. Ordusunun səriştəsizliyini ört-basdır etmək istəyən, ölkədaxili gündəmi eybəcər üsullarla dəyişməyə çalışan Ermənistan rəsmiləri nəhayət, anlamalıdır ki, birinci növbədə öz ölkələrində sabitliyi təmin etmək üçün təxribatlardan çəkinməli, qonşu ölkələrlə normallaşma və sülh istiqamətində konkret addımlar atmalıdırlar. Bunun başqa yolu mövcud deyil".

# Sosial mediada təhqir və böhtan hüquqi məsuliyyət yaradır

## Azərbaycanda da qanunvericiliyə dəyişiklik edilməsinə ehtiyac duyulur

*Əvvəli 1-ci səh.*

Sərhəd tanımayan - narkotik təbliği, pis vərdişlərə təhrik, dələduzluq hallarını artıran, eyni zamanda əxlaqi dəyərləri aşındıran neqativ davranışları sərgiləyən paylaşımlar uşaqların psixologiyasına təsir edərək onların aldanmasına, pis vərdişlərə meyillənməsinə yol açır.

Təxribat və yalan xarakterli məlumatların yayılmasının qarşısının alınması istiqamətində tədbirlər görülsə də, texnologiyaların sürətlə inkişaf etdiyi zamanda bununla ayaqlaşmaq mümkün deyil. Cəzasız qalanlar isə mənfi nəticələrini düşünmədən yenidən dezinformasiya yaymaqdan, yalan xəbərlər paylaşmaqdan, sifarişli məlumatlar verməkdən çəkinmirlər. Nəticəsi isə heç də ürəkaçan olmur.

Türkiyədə qəbul edilən qanunun yalan və dezinformasiya xarakterli məlumatların qarşısının alınması istiqamətində atılan vacib addım olduğunu düşünən ekspertlər bildirirlər ki, Azərbaycanda da bu kimi halların qarşısının alınması üçün qanunvericiliyə dəyişiklik edilməsinə ehtiyac var.

### Türkiyədə qəbul edilən yeni qanun sosial mediadakı hərc-mərcliyin qarşısını alacaq

Mətbuat Şurasının İdarə heyətinin üzvü, "Azxeber.com" informasiya portalının redaktoru Hacıbəy Heydərli qəzetimizə açıqlamasında deyib ki, Türkiyədə media ilə bağlı qəbul edilən yeni qanun ilk növbədə sosial şəbəkələrin fəaliyyətinin tənzimlənməsi baxımından çox vacibdir. Onun sözlərinə görə, sosial şəbəkələrdə saxta xəbərlər, dezinformasiyalar çoxluq təşkil edir və bu cür məlumatlar çox vaxt cəmiyyət arasında təşviş, qorxu, xaos yaranmasına gətirib çıxarır. Bu xəbərlər daha sonra təkzib edilsə belə, oxucu ilk xəbərə daha çox inanır və onun arxasınca gedir.



Jurnalist qeyd edir ki, Türkiyədə bu kimi dezinformasiyalar daha çox tviter sosial şəbəkəsində yayılır, çünki bu şəbəkə orada populyardır. Bu qanunun əsas məqsədi saxta xəbərlərin qarşısını almaqdan ibarətdir. Burada başqa bir diqqətçəkən məqam isə saxta profillərdən edilən paylaşımlarla bağlıdır. Çünki cəmiyyətdə xaos, panika, təşviş yaradan məlumatları paylaşan şəxslər çox vaxt "fake" profildən istifadə edir və bu yolla kimliyini gizlətməyə çalışırlar. Bu tip məlumatların qarşısını almaq məqsədilə təsdiqlənən yeni qanunun tələblərindən biri də Türkiyədə sosial şəbəkələrin nümayəndəliyinin açılması ilə bağlıdır: "Çox vaxt görürük ki, feysbuk, tviter, instaqram kimi sosial şəbəkələr rəsmi ofisi və ya nümayəndəliyi olmayan ölkələrdən gələn şikayətlərə etinasız yanaşır, onların müraciətlərini görməzdən gəlir. Bu da bir çox hallarda dezinformasiyaların, saxta xəbərlərin daha geniş arenaya yayılmasına şərait yaradır. Sosial şəbəkələrin Türkiyədə rəsmi ofisi açılandan sonra "fake" və ya "trol" profilləri tapmaq da asanlaşacaq və bununla sosial mediadakı xaosun qarşısı alınacaq".

### Heç kəs unutmamalıdır ki, paylaşdığı yanlış məlumat çox ciddi qalmaqala səbəb olur

Redaktor vurğulayır ki, diqqətçəkən daha bir məqam isə sosial şəbəkələrdə uşaqların və yeniyetmələrin əxlaqını korlayan materiallarla bağlıdır: "Bu kimi məlumatlar qanun pozuntusu hesab ediləcək. Bu, həm də mənəvi dəyərlərin təbliği baxımından da çox önəmlidir. Çünki sosial şəbəkələrdə uşaqlara şiddət, narkotikin təbliği, intiharlara meyil, yeniyetmələrin əxlaqını korlayan paylaşımlar geniş vüsət alıb. Bununla o kimi məlumatların da qarşısı alınacaq".

Hacıbəy Heydərli deyir ki, sosial media haqqında qanunda internet medianın tənzimlənməsi də nəzərdə tutulur. Burada - rəsmi ünvanı olmayan saytların xəbər saytı hesab olunmaması, xəbər saytlarının yayımladığı xəbərləri arxivdə saxlamağa məcbur edilməsi kimi müddəalar var. Eyni zamanda xəbər saytı əməkdaşları "sarı basın kartı" əldə edəcək və imtiyazlardan yararlana biləcək.

O düşünür ki, bu qanun sosial mediadakı hərc-mərcliyin, özbaşınalığın, şər-böhtan kampaniyasının qarşısını alacaq.

Jurnalist təəssüflə qeyd edir ki, sadalanan hallara ölkəmizdə də rast gəlinir. Azərbaycanda da bəzi saytlar və sosial şəbəkə hesablarında yalan, şantaj və dezinformasiya xarakterli, sifarişli materiallara rast gəlinir. Sosial şəbəkədən istifadə edən heç kəs unutmamalıdır ki, o həm də informasiya daşıyıcısıdır, paylaşdığı hansısa yanlış məlumat çox ciddi böhrana, qalmaqala səbəb ola bilər. Bu gün insanlara qarşı şər, böhtan kampaniyası, şərəf və ləyaqətin alçaldılması, işgüzar nüfuza xələl gətirilməsi hallarına ən çox sosial mediada rast gəlinir. Bu istiqamətdə maarifləndirici tədbirlər keçirilməli və insanlara qanunun tələbləri aşılanmalıdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ






# Zəfərin Füzuli zirvəsi

## Vətən müharibəsinin 21-ci günü bu şəhərin azad olunması ilə "keçilməz Ohanyan" mifi darmadağın edildi

**Rəşadətli ordumuz torpaqlarımızı düşmən tapdağından azad etməkdə davam edirdi. Ordumuz hər gün irəliləyərək düşmənin hərbi mövqelərini darmadağın edir, qorxuya düşən ermənilər mövqelərini, silah-sursatını qoyaraq qaçırdı. Düşmən qüvvələri arasında fərarilik halları da artmaqda idi.**

Vətən müharibəsinin 21-ci günü. Gecədən səhərə qədər Füzuli uğrunda şiddətli döyüşlər davam edir. Beləliklə, oktyabrın 17-də xalq Prezidentdən növbəti müjdəli xəbəri alır: "Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib: Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri".

Prezident xalqa müraciətində qeyd edir ki, ekspertlər 30 il ərzində düşmənin təmas xəttində qurduğu istehkamlar səbəbindən Füzuli şəhərini işğaldan azad etməyin mümkün olmadığını hesab edirdilər. Amma Azərbaycan Ordusu nəyə qadir olduğunu bir daha nümayiş etdirərək həmin fikirləri alt-üst elədi: "Tanınmış hərbi ekspertlər Füzulini işğaldan azad etməyə aylarla vaxt lazım olduğunu deyirdi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gəldi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmən tapdağından azad olundu. Təəssüf ki, Füzulidən əsər-əlamət qalmayıb. 30 il ərzində Füzuli çaqqalların, yırtıcı vəhşilərin əlində idi. Bütün binalarımız, məscidlərimiz sökülüb, evlər sökülüb. Sanki 30 il bu şəhəri vəhşi bir qəbilə zəbt edib".

### Azad olunan ilk yaşayış məntəqələri

Füzuli və Cəbrayıl rayonları döyüşlərin ilk getdiyi ərazilər, eyni zamanda kəndləri işğaldan azad olunan ilk rayonlardır. Sentyabrın 27-də Ermənistanın genişmiqyaslı təxribatlarına cavab olaraq əks-hücum əməliyyatı keçirən Azərbaycan Ordusu elə ilk gündə Füzulinin üç yaşayış məntəqəsini - Qaraxanbəyli, Qərvənd və kənd Horadizi düşmən tapdağından azad etmişdi.

Düşmən istehkamları burada daha möhkəm idi və ermənilərin "Ohanyan səddi" də elə orada yerləşirdi. Buna baxmayaq, Silahlı Qüvvələrimiz keçilməz hesab edilən bu istehkamları yararaq irəlilədi. Təbii ki, dağıdılan "Ohanyan səddi" düşməni daha da qorxuya saldı.

*Tarixə nəzər: Füzulinin əsası 1827-ci ildə qoyulub. Qarabulaq adlanan yaşayış məskəninin əsasında 1930-cu ildə rayon təşkil olunub və Qaryagin adlandırılıb. Rayon mərkəzi Qaryagin qəsəbəsi olmaqla, Qozluçay, Köndələnçay, Araz boyu və Füzuli-Ağdam magistral yolunun hər iki ətrafında olan kəndləri əhatə edib. 1959-cu ildə dahi şairimiz Məhəmməd Füzulinin 400 illik yubileyi münasibətilə rayonun adı dəyişdirilərək Füzuli rayonu adlandırılıb. Rayonun tərkibinə bir şəhər və 78 kənd daxildir. Avqust ayının 23-ü 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin rayon ərazisinə hücumu nəticəsində Füzuli şəhəri daxil olmaqla 58 kənd işğal olunub.*

Yalnız Ulu Öndər Heydər Əliyevin əmri ilə 5 yanvar 1994-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin keçirdiyi əməliyyat nəticəsində Füzuli rayonunun 22 yaşayış məntəqəsi işğaldan azad olunub. O zaman işğaldan azad olunmuş ərazilərdə rayon əhalisinin 50 faizə qədəri yaşayırdı.

### İşğaldan azad edilmiş torpaqlara ilk səfər, Zəfər yolunun təməlinin qoyulması

Vətən müharibəsi başa çatdıqdan, torpaqlarımız işğaldan azad edildikdən sonra Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Füzuliyə səfərləri də məhz ilk şəhid verdiyimiz bu torpaqlar oldu.

Dövlət başçısı Füzuli şəhərində Azərbaycan bayrağını qaldırdı. Füzuliyə səfər edən Ali Baş Komandan elə həmin gün Füzuli-Şuşa avtomobil yolunun təməlini qoydu. Prezident bu yolu Zəfər yolu adlandırdı.

Prezident işğaldan azad edilmiş digər rayonlar kimi Füzuliyə də dəfələrlə səfər edib, təməlqoyma və açılış mərasimlərində iştirak edib. 2021-ci ilin yanvar ayında Füzuliyə səfər edən İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoyub.

### 8 aya tikilən Qarabağın ilk hava qapısı

Füzuli Beynəlxalq Hava Limanı işğaldan azad edilmiş ərazilərimizdə ilk limandır və bunun əhəmiyyəti olduqca böyükdür. Bu hava limanı işğaldan azad olunmuş ərazilərimizlə əlaqələrin intensiv və rahat qurulmasında mühüm rol oynayır.

Dövlət başçısı təməlqoyma mərasimində çıxışında qeyd etmişdi ki, bu layihə azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmlidir. Aeroportun digər məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etmək idi. Ölkə rəhbərinin də dediyi kimi, Füzuli Beynəlxalq Hava Limanı qısa bir zamanda, hətta deyiləndən daha tez - 8 ay ərzində tikildi.

Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 2021-ci il oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılışını etdilər.

Qarabağın hava qapısı adlandırılan bu hava limanı ən müasir səviyyədə inşa olunub. Onun istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanının ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb. Burada avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsi tikilib. Bu isə Füzuli Beynəlxalq Hava Limanında ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanmasını mümkün edir. Hava limanında baqaj konveyerləri, qeydiyyat sistemi, VIP zallar, mağazalar, restoranlar və digər zəruri məntəqələr yaradılıb. Burada sərnişinlərin rahatlığı üçün bütün meyarlar yüksək səviyyədə nəzərə alınıb.

Ümumiyyətlə, ekspertlər qeyd edirlər ki, hava limanının açılması ilk növbədə turizmin inkişafına hesablanıb. Füzulidə tikilən və Şərqi Zəngəzurda təməlləri atılmış hava limanları gələcəkdə bu bölgəyə turist axınında müstəsna rol oynayacaq. Çünki işğaldan azad olunmuş rayonların turizm potensialı genişdir. Turistlərin rahat gediş-gəlişini təmin etmək üçün isə hava nəqliyyatının müstəsna əhəmiyyəti var.



### Füzuli şəhəri yenidən qurulur

Füzulinin işğaldan azad olunmasından bir il sonra Prezident İlham Əliyev yenidən rayona səfər etdi. Səfər çərçivəsində Füzuli-Ağdam avtomobil yolunun, işğal zamanı dağıdılmış Füzuli rayonunun Dövlətyarlı kəndində yeni "ağıllı kənd"in, Azərişıq ASC-nin Füzuli şəhərində Rəqəmsal Yarımstansiya İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak etdi. Eyni zamanda Füzuli Memorial Kompleksinin və Füzuli şəhərinin təməl daşı qoyuldu.

Həmin gün rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən dövlət başçısı qeyd etdi ki, düz bir il bundan əvvəl şanlı Azərbaycan Ordusu Füzuli şəhərini və bir neçə kəndi işğalçılardan azad edib, Azərbaycan bayrağını burada qaldırıb və beləliklə, uzun fasilədən sonra Azərbaycan dövləti bu ərazilərdə öz suverenliyini təmin edib: "Həmin an - 17 oktyabr günü Azərbaycan xalqının çoxəsrlik tarixində xüsusi yer tutacaq. Çünki məhz oktyabrın 17-də bizim böyük şəhərimiz Füzuli işğalçılardan azad edildi. İkinci Qarabağ müharibəsində şəhid olmuş bütün şəhidlərimizə Allahdan bir daha rəhmət diləyirəm. Onların fədakarlığı, qəhrəmanlığı sayəsində biz tarixi ədaləti bərpa etdik".

Prezident Füzulinin azad olunmasının əhəmiyyətindən söz açaraq bildirdi ki, Füzuli böyük yaşayış məntəqəsi idi və Cəbrayıldan, Hadrutdan sonra üçüncü böyük yaşayış məntəqəsi işğalçılardan azad edildi. Füzuli şəhərinin azad olunmasının əhəmiyyəti, eyni zamanda bu şəhərin strateji yerləşməsi ilə bağlıdır. Füzuli Azərbaycan Ordusunun nəzarətinə keçəndən sonra artıq Şuşa istiqamətinə getmək üçün daha geniş imkanlar açıldı. Otuz il ərzində düşmənin burada möhkəmlənməsi, istehkamlar qurmasına baxmayaraq, Azərbaycanın igid oğulları həmin sədləri keçərək düşmənin canına vəlvələ saldı. Bu, əsl qəhrəmanlığın, fədakarlığın təcəssümüdür: "Təbii ki, bunu görən düşmənin gözü qorxdu. Gördülər ki, bizim əsgər-zabitlərimiz doğma torpaqları azad etmək üçün ölümə getməyə hazırdırlar. Bu istehkamları canı-qanı bahasına keçmiş qəhrəman əsgər-zabitlərimiz düşmənə Azərbaycan xalqının böyüklüyünü bir daha göstərdi. Təsadüfi deyil ki, Füzuli azad olunandan sonra Ermənistan ordusunda fərarilik halları daha geniş vüsət aldı. Düşmən gördü ki, bizim qabağımızda dura bilməyəcək, düşmən gördü ki, artıq bizim önümüz açıldı, digər şəhər və rayonlarımızın azad edilməsi məsələsi qaçılmazdır".

Bu ilin may ayında Füzuliyə səfər edən dövlət başçısı və birinci xanım Füzuli şəhərində inşa olunacaq Peşə Liseyinin, Füzuli Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimlərində iştirak etdilər. Eyni zamanda şəhərdə yeni yaradılacaq mərkəzi park kompleksinin ərazisində ağac əkdilər.

Vətən müharibəsinin ikinci ilinin Anım Günündə dövlət başçısı Füzuliyə yenidən səfər etdi. Rayonun Qaraxanbəyli kəndində 27 Sentyabr - Anım Gününə həsr olunmuş xatirə lövhəsinin önünə gül dəstələri qoyaraq Vətən müharibəsi şəhidlərinin xatirəsini birdəqiqəlik sükutla yad etdi. Sonra Prezident qeyd etdi ki, şəhidlərimizin şərəfinə bu abidə - bu qaya parçası burada, Qaraxanbəyli kəndinin yaxınlığında ucaldılıb. İlham Əliyev vurğuladı ki, Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı - Füzuli rayonunun kəndləri və Cəbrayıl rayonunun kəndləri - Böyük Mərcanlı və Nüzgar kəndi müharibənin ilk günündə azad edilib: "İlk şəhidləri biz məhz burada, bu yerdə vermişik. Bu abidənin yanında düşmənin səngəri yerləşirdi. Bu istiqamətdə beş-altı müdafiə xətti mövcud idi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bu müdafiə xəttini və bundan sonrakı müdafiə xətlərini yarmaq üçün ölümə gedirdi. Sözün əsl mənasında, ölümə gedirdi, öz canını fəda edirdi ki, üçrəngli bayrağımız Şuşada və o vaxt işğal altında olan digər bütün torpaqlarda dalğalansın".

### Füzuli igidləri

Bəli, Füzulinin azad olunması uğrunda neçə-neçə qəhrəman oğullar canı-qanı bahasına irəli atıldı. Onlar torpaqlarını düşmən tapdağından qurtarmaq, 30 illik həsrətə son qoymaq üçün ölməyə belə hazır idilər.

Bu baxımdan Vətən müharibəsindəki qələbə münasibətilə təsis edilən medallardan biri də "Füzulinin azad olunmasına görə" medalı idi. Prezident İlham Əliyevin 2020-ci ilin dekabrın 25-də və 2021-ci ilin iyunun 24-də imzaladığı müvafiq sərəncamlara əsasən, 25301 hərbi qulluqçu Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiklərinə görə təltif ediliblər.

### Füzulinin iqtisadi potensialı

Milli Məclisin deputatı Vüqar Bayramov deyir ki, Füzuli Qarabağın aparıcı rayonlarından biridir. Füzulidə hazırda sürətli bərpa və yenidənqurma işləri həyata keçirilir. Füzuli şəhərində yaşayış binalarının inşası, bütövlükdə şəhərin bərpası prosesi, demək olar ki, başlayıb. Eyni zamanda ikinci "ağıllı kənd" də Füzuli rayonunun Dövlətyarlı kəndində salınacaq. Rayon intensiv şəkildə bərpa olunur, qurulur və gözlənti də ondan ibarətdir ki, 2023-cü ilin payız aylarında Füzuli şəhərinə ilkin köçü, məskunlaşmanı müşahidə edə biləcəyik.

Vüqar Bayramov deyir ki, Füzuli həm də iqtisadi baxımdan Azərbaycan üçün vacib rayonlardandır: "Füzulidə həm aqrar sektorda, həm sənayedə, həm turizm sahəsində böyük potensial var. Füzuli rayonu işğala qədər Azərbaycanda bir sıra aqrar məhsulların istehsalında aparıcı olub".

O bildirir ki, rayonda kənd təsərrüfatı məhsullarının istehsalının da bərpa ediləcəyi gözlənilir. Rayonda eyni zamanda sənaye potensialı var, nəqliyyat və logistika inkişaf edib. Bu da istehsal edilən məhsulların daha geniş bazara çıxarılmasına imkan yarada bilər.

Deputat vurğulayır ki, rayonun turizm potensialı yüksəkdir, orada tarixi yerlər çoxdur. İşğaldan azad edilmiş ərazilərimizdə təbiət həm daxili, həm də gəlmə turistlər üçün kifayət qədər cəlbedicidir. Bütün bunlar Füzulinin iqtisadi potensialının yüksək olduğundan xəbər verir. Bu baxımdan bərpa və yenidənqurma işlərinin sürətli getməsi uzun müddət ata-baba yurdundan uzaq düşmüş füzulililərin qısa zamanda doğma torpaqlarına qayıdacağından xəbər verir.

### Cənub-şərq cəbhəsində ən ağır döyüşlər

Hərbi ekspert Ədalət Verdiyev deyir ki, Azərbaycan Ordusunun Füzuli rayon mərkəzinin azad olunması üzrə apardığı döyüş əməliyyatları Vətən müharibəsinin cənub-şərq cəbhəsinin ən ağır döyüşlərindən biridir. Ekspertin sözlərinə görə, İkinci Qarabağ savaşının başladığı ilk saatlarda Azərbaycan Ordusu Aşağı Əbdürrəhmanlı kəndini düşməndən azad etməklə Füzuli şəhərinə maksimum yaxınlaşıb.

Düşmən Füzuli rayonunun müdafiəsi üçün bir neçə mühafizə xəttindən ibarət "Ohanyan xətti" qurmuşdu və bu, Füzuli şəhərinin azad olunmasını kifayət qədər çətinləşdirirdi. Ordumuz Cəbrayıl istiqamətində daha böyük uğurlar əldə etmişdi və bu halda Cəbrayıl rayonu istiqamətində hücumlarımız daha intensiv şəkildə davam etdi. Cəbrayıl rayonu azad edildikdən sonra düşmən Azərbaycan Ordusunu Füzuli istiqamətində gözləyirdi, lakin Füzuli istiqamətində hücumları imitasiya etməklə əsas qüvvələrimizi Cəbrayıl və Xocavənd kəndləri istiqamətindən Hadruta doğru yönəltdik. Hadrutun azad olunması isə Füzulinin düşməndən təmizlənməsi üçün daha münbit şərait yaratdı.

Ədalət Verdiyev qeyd edir ki, Hadrut istiqamətində düşmənin əks-hücumlarını dəf edən Azərbaycan Ordusu 14 oktyabr tarixdən Füzuli rayonunun bir çox kəndini azad etməklə üç rayon ərazisindən hücumları davam etdirib: "Oktyabrın 16-dan 17-nə keçən gecə isə şəhər döyüşləri başlayır. Düşmən xeyli sayda canlı qüvvə və texnika itkisinə məruz qaldıqdan sonra Füzuli şəhərini tərk etmək məcburiyyətində qalır".

Ekspert deyir ki, düşmən qüvvələri arasında fərarilik halları Füzulinin azad olunmasından sonra daha da artdı. Ermənistan fərari ordusu titulunu da məhz Füzuli döyüşlərindən sonra qazandı. Əməliyyatlar nəticəsində düşmənin çox sayda hərbi qulluqçuları ilə bərabər yüksəkrütbəli zabitləri də məhv edildi. Onların silah-sursatı, texnikası qənimət olaraq ordumuzun istifadəsinə keçdi. Onlardan bəziləri bu gün də ordumuz tərəfindən istifadə edilməkdədir.

Onun sözlərinə görə, Füzulinin azad olunması ilə Azərbaycanın cəbhəboyunca düşmənin üzərinə irəliləməsi üçün imkanlar artıb. Digər tərəfdən, cəbhə xəttinin Azərbaycanın mülki əhalisinin yaşadığı məntəqələrimizdən daha da uzaqlaşması həmin ərazilərdə yaşayan əhalinin təhlükəsizliyi üçün kifayət qədər müsbət rol oynayıb.

### Dağıdılan abidələr

Füzuli rayonu da digər yaşayış məntəqələrimiz kimi işğal dövründə erməni vəhşiliyinin, vandalizminin qurbanı olub. Rayon ərazisində olan evlər, tarixi abidələr tamamilə dağıdılıb, ağaclar məhv edilib.

Füzuli rayonu tarixi-dini abidələrlə, xüsusən də türbələrlə zəngin olub. Bu abidələr sırasına rayonun Babı kəndində yerləşən səkkizguşəli Şeyx Babi Yaqub türbəsini, Aşağı Veysəlli kəndində XIV əsrə aid Mirəli, Əhmədalılar kəndində orta əsr qəbiristanlığının ərazisində sənduqə formalı qəbirdaşının üzərindəki türbəni, XIX əsrə aid olduğu söylənilən Cəlil türbəsini aid etmək olar.

Təbii ki, 30 il ərzində bütün ərazilərimiz kimi Füzuli rayonu da tamamilə dağıdılıb. Amma Vətən müharibəsi başa çatdıqdan sonra burada bərpa tikinti-quruculuq işlərinə start verilib. Füzulidə ikinci "ağıllı kənd"in salınması nəzərdə tutulur. Bununla da torğaqların əzəli sahibləri ora geri qayıtmağa başlayacaq və Qarabağ əvvəlki əzəmətini bərpa edəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



## Qərbin görmək istəmədiyi erməni vandallığı

### Ermənistan silahlı qüvvələrinin Gəncəni beşinci dəfə bombalamasından iki il keçir

2020-ci il oktyabrın 16-dan 17-nə keçən gecə... Vətən müharibəsinin ilk günlərindən torpaqlarımızı azad edə-edə irəliləyən Azərbaycan Ordusu yağı düşməni ağır məğlubiyyətlərə uğradırdı. O gecə də Füzuli şəhəri uğrunda şiddətli döyüş gedirdi. Azərbaycan xalqı həyəcan və intizarla cəbhədən qələbə xəbərləri gözləyirdi.

Cəbhə bölgəsindən uzaqda yerləşən Azərbaycanın ikinci böyük şəhərinin - Gəncənin sakinləri də zəfər sorağı ilə qarşılamışdılar 2020-ci il oktyabrın 16-dan 17-nə keçən gecəni. Ancaq o gecə də səksəkə içindəydilər. Müharibədə igid Azərbaycan döyüşçülərinin qarşısında aciz olan, döyüş meydanında qorxub qaçmaq məcburiyyətində qalan Ermənistan silahlı qüvvələri "güclərini" dinc sakinlərə göstərirdilər. Ermənistan döyüş bölgələrində biabırçı məğlubiyyətinin əvəzini yenə terrora əl atmaqla çıxırdı.

### 2020-ci ilin 17 oktyabr gecəsinədək...

Hələ Vətən müharibəsinin başladığı gündən - 2020-ci il sentyabrın 27-dən Ermənistan silahlı qüvvələri yaşayış məntəqələrimizi atəşə tutaraq Naftalan şəhərində bütöv bir ailəni məhv etdilər. Ermənistan Azərbaycanın mülki əhalisinə qarşı terror əməllərini sonrakı günlərdə də davam etdirdi. Sentyabrın 28-də Tərtər şəhərini və Birinci Qarabağ müharibəsində qaçqın düşən azərbaycanlılar üçün inşa edilən Şıxarxı atəşə tutdular. Sonrakı günlərdə də Tərtər rayonundakı şəhər, qəsəbə və kəndləri artilleriya, raket və kaset silahlarla bombardman etməklə çox sayda mülki insanın ölümünə səbəb oldular.

Ermənistan silahlı qüvvələri Beyləqan şəhərinin müxtəlif istiqamətlərində dinc əhalinin yaşayış evlərini ağır artilleriyadan atəşə tutdular. Oktyabrın 3-də növbəti hücum zamanı iki sakin həlak oldu. Yaralılar xəstəxanaya yerləşdirildi.

Oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndinə işğalçılar raket hücumları etdi. Səhəri gün Bərdə şəhərinin dinc sakinlərinin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə "Smerç" tipli 2 ədəd raket zərbələri endirildi. Bərdəyə hücumlar nəticəsində 27 nəfər öldü, 70 nəfərdən artıq insan yaralandı.

Vətən müharibəsinin ilk günlərindən Ermənistanın hədəfində döyüş bölgəsindən uzaq olan Azərbaycanın ikinci böyük şəhəri də vardı. İşğalçı ölkənin silahlı qüvvələri 2020-ci ilin oktyabrında Gəncəni 5 dəfə ayrı-ayrı zamanlarda bombaladı. Oktyabrın 4-də birinci dəfə Ermənistan silahlı qüvvələri tərəfindən ballistik raketdən Gəncə şəhəri vuruldu. 1 nəfər şəhid oldu, 30 nəfər yaralandı. Oktyabrın 5-də Gəncə şəhəri ikinci dəfə raket hücumuna məruz qaldı. Ermənistan ərazisindən atılan raket Gəncənin "Grand Qafqaz" Ticarət Kompleksinə düşdü. 3 mülki şəxs müxtəlif dərəcəli xəsarətlər aldı.

Gəncəyə növbəti hücum oktyabrın 8-də oldu. Bu, gecə saatlarında Gəncəyə endirilən ilk raket zərbəsi idi. Ölən və yaralananlar olmasa da, evlərə və nəqliyyat vasitələrinə ciddi ziyan dəydi.

Rusiya Federasiyasının vasitəçiliyi ilə Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin Moskva görüşü nəticəsində 10 oktyabr 2020-ci il saat 12.00-dan humanitar atəşkəsə riayət edilməsi barədə əldə edilən razılığa da işğalçı dövlət əməl etmədi. Yenə Azərbaycanın dinc əhalisini qəsdən hədəfə aldı, strateji obyektləri ağır artilleriyadan atəşə tutdu. Oktyabrın 11-i gecəsi Ermənistanın Berd rayonunda yerləşən erməni silahlı qüvvələrinin bölmələri Gəncəni Skad ballistik raketlərindən atəşə tutdu. 10 mülki şəxs şəhid oldu, 40-dan çoxu yaralandı.

### Növbəti erməni terrorunun günahsız qurbanları

Oktyabrın 17-də gecə Ermənistan silahlı qüvvələri Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan Mingəçevir Su-Elektrik Stansiyasını hədəfə aldı. Düşmənin cəbhə zonasından 100 kilometrdən artıq uzaqlıqda yerləşən bu iri sənaye şəhərinə atdığı raketlər ordumuzun Hava Hücumundan Müdafiə Qoşunları tərəfindən zərərsizləşdirildi.

Mingəçevirdə məqsədinə çata bilməyən Ermənistan terror əməllərini həyata keçirmək üçün növbəti dəfə Gəncəni ünvan seçdi. Oktyabrın 17-də gecə saat 1 radələrində şəhərin mərkəzi qadağan olunmuş silahlardan, eləcə də Skad ballistik raketlərdən və kasetli bombalardan istifadə edilməklə atəşə tutuldu.

Yerli səlahiyyətli şəxslər 20 evin dağıdıldığını, xeyli sayda mülki şəxsin dağıntılar altında qaldığını xəbər verdilər. Azərbaycan Respublikasının axtarış və xilasetmə komandaları, Müdafiə Nazirliyinin işçiləri hadisə yerinə yetişdi. Dağıntılar altında qalanları xilas etmək üçün hamı səfərbər oldu. Yerli və xarici media nümayənləri özlərini hadisə yerinə çatdırdılar. RİA Novosti agentliyinin müxbiri ballistik raketlərin əhalinin sıx yaşadığı əraziyə düşdüyünü qeyd etdi. "Dojd" kanalının müxbiri Vasili Polonski raketlərin düşdüyü yerlərin yaxınlığında heç bir hərbi, eləcə də hər hansısa vacib obyektlərin olmadığını vurğuladı.

Faktla bağlı Azərbaycan Baş Prokurorluğu tərəfindən cinayət işi başlanaraq istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə tapşırıldı.

Bu günlərdə Baş Prokurorluq Vətən müharibəsi zamanı Gəncənin raket və artilleriya atəşinə tutulmasının ikinci ildönümü ilə bağlı bəyanat yayıb. Bəyanatda bildirilir ki, Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların əlavə protokollarını, 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsinin gedişatında əldə olunan humanitar atəşkəs rejiminin tələblərini pozaraq döyüş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə və cəbhə zonasından uzaqda yerləşən şəhər və rayonlarındakı mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri hədəf seçib, müxtəlif növ silahlarla, ballistik raketlərlə, eyni zamanda qadağan olunmuş artilleriya silahları ilə atəşə tutaraq insanlıq və sülh əleyhinə, habelə müharibə cinayətləri törətmiş, müharibəyə hər hansı aidiyyəti olmayan, gündəlik qayğıları ilə yaşayan mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurub. Vurğulanıb ki, Ermənistan silahlı qüvvələrinin 44 gün sürən Vətən müharibəsinin gedişatında bir neçə iri şəhəri, o cümlədən yarım milyondan çox əhali yaşamaqla Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncəni hədəf alması 1988-ci ildən bu günədək davam etdirilən təcavüzkar siyasətin tərkib hissəsidir.

Bəyanatda diqqətə çatdırılıb ki, müharibə ərazisindən kənarda yerləşən Gəncə şəhərinin 4, 5, 8, 11 və 17 oktyabr 2020-ci il tarixlərində raket və ağır artilleriya silahları ilə bombalanması nəticəsində 10 qadın, 6-sı azyaşlı olmaqla 26 nəfər şəxs həlak olub, 57 qadın, 32-si azyaşlı olmaqla 175 nəfər yaralanıb, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Müharibə dövründə də döyüş bölgəsindən uzaqda yerləşən mülki əhalini hədəf seçən Ermənistanın əsas məqsədi daha çox insanın həyatına son qoymaq idi. Ona görə də təcavüzkar mülki şəxslərin sıx yaşadığı yerlərə, əsasən də gecə saatlarında hücum edirdi. Bu hücumlar Azərbaycan xalqının sinəsinə dağ çəkirdi. Ancaq hər bir azərbaycanlının yağı düşmənə nifrətini daha da artırır, qələbə əzmini gücləndirirdi. Hər kəs qürurlanırdı ki, ermənilər kimi dinc əhaliyə qarşı terrorlar törədən, məsum körpələrə, qadınlara, qocalara qıyan dövlətin vətəndaşı deyillər. Hər kəs fəxr edirdi ki, Azərbaycan Ordusu düşmənə layiq olduğu cavabı yalnız döyüş meydanlarında verir. Bu dövlət, onun müzəffər ordusu hər bir azərbaycanlının başını ucaldırdı.

2020-ci il oktyabrın 17-si Azərbaycan xalqı üçün həm hüzn, həm də qələbə müjdəli gün oldu. O gün Ermənistanın növbəti dəfə Gəncəyə raket hücumları nəticəsində soydaşlarının şəhid olmasına, yaralanmasına yas tutan hər bir azərbaycanlı Füzuli şəhərinin və digər yaşayış məntəqələrimizin işğaldan azad olunmasına sevinirdi.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## 16-17 oktyabr 2020-ci il ZƏFƏR gündəliyi

Oktyabrın 16-na keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut istiqamətlərində əməliyyat şəraiti yenə də gərgin olaraq qalıb.

İşğaldan azad edilmiş Cəbrayıl və Hadrut istiqamətlərində yerləşən bölmələrimizin mövqelərini, eləcə də cəbhə xəttinə yaxın kəndləri düşmən dünən gün ərzində raket, artilleriya və minaatanlardan atəşə tutub. Gecə ərzində cəbhənin bəzi istiqamətlərində düşmən fəallaşmağa cəhd göstərib. Qoşunlarımız tərəfindən bunun qarşısı alınıb, düşmən ciddi itki verib.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd BM-21 “Qrad” YARS, 5 ədəd D-30 haubitsa topu, 2 ədəd ZSU-23-4 “Şilka” özüyeriyən zenit qurğusu və döyüş sursatı ilə yüklənmiş 8 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.



❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə zolağında hərbi qulluqçular və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər arasında kütləvi şəkildə fərarilik halı qeydə alınıb. Bunun qarşısını almaq məqsədilə Ermənistan rəhbərliyi Gorus və Turşsu yaşayış məntəqələrinin avtomobil yollarında hərbi polisin komendant postlarını qurub.

5-ci dağatıcı alayın müdafiə zolağında mövqe tutan şəxsi heyət arasında xeyli sayda ölən və yaralanan olub. Alayın bölmələrində ərzaq və döyüş sursatı çatışmazlığı açıqlanıb.

10-cu alayın müdafiə zolağına könüllüləri daşıyan avtomobil texnikasının vurulması nəticəsində ölən və yaralanan var. Geri çəkilən düşmən xeyli sayda avtomobil və zirehli texnikanı mövqedə buraxaraq qaçıb.

9-cu motoatıcı alayın müdafiə zolağında artilleriya batareyası məhv edilib, alay komandirinin müavini isə yaralanıb. Dağlıq Qarabağ ərazisinə gələn muzdluların bir qisminin döyüşə girməkdən imtina etməsi məlum olub.



❖ ❖ ❖

Prezident İlham Əliyev Türkiyənin “A Haber” televiziya kanalına müsahibə verib. Ermənistanın humanitar atəşkəs elan olunan zaman Gəncə və Tərtərə artilleriya zərbəsi endirməsinə sərt reaksiya verən Ali Baş Komandan deyib ki, bu namərd hücumlar Azərbaycanı yolundan döndərə bilməz, xalqın iradəsini qıra bilməz: “Biz öz ərazi bütövlüyümüzü bundan sonra da bərpa etməyə davam edəcəyik”.

Prezident həmçinin ordumuzun uğurlu hərbi əməliyyatlarından söz açaraq bildirib ki, artıq Hadrut qəsəbəsi Azərbaycanın nəzarətindədir, Füzulinin ətrafında kəndlərin mütləq əksəriyyəti bizdədir: “Artıq Füzuli bizim gözümüzün qabağındadır. Ondan sonra cənub istiqamətində də irəliləmişik. Şimalda Murovdağ mövqeləri bizdədir, Suqovuşan bizdədir. Yəni bütün istiqamətlər üzrə böyük uğurlar əldə etdik və bu proses davam edir. Hesab edirəm və əminəm ki, Azərbaycan xalqı bunu diqqətlə izləyir. Xüsusilə o kəndlərin sakinləri ki, o kəndlər işğaldan azad edilir, onlar üçün, əlbəttə, bu, tarixi günlərdir”.

❖ ❖ ❖

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri səhər saatlarından başlayaraq Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atəşə tutub. Səhər saat 06 radələrindən 08-ə qədər Tərtər, Ağdam, Goranboy və digər rayonlara 220-dən çox mərmi düşüb.

❖ ❖ ❖

Prezident İlham Əliyev özünün rəsmi tviter səhifəsində daha bir xoş xəbəri paylaşıb:

“Rəşadətli Azərbaycan Ordusu tərəfindən Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”

❖ ❖ ❖

Ermənistan uydurma məlumatlar yayaraq Hadrut qəsəbəsinin hələ də onların nəzarətində olduğunu bildirib. Azərbaycan Müdafiə Nazirliyi isə işğaldan azad olunan Hadrut qəsəbəsindən yeni videogörüntülər yaymaqla növbəti erməni yalanını ifşa edib.

Oktyabrın 17-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində əməliyyat şəraiti gərgin olaraq qalıb.

Qoşunlarımız düşmənin əvvəlcədən hazırlanmış müdafiə hədlərini müxtəlif istiqamətlərdə yarmağa, onu tutduğu mövqelərdən sıxışdıraraq çıxarmağa, qaçmağa məcbur etməyə və irəliləməyə nail olub.

Aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində döyüş təcrübəsi qazanan şəxsi heyətimiz əhəmiyyətli istiqamətlərdə əlverişli hədd, yüksəklik və mövqeləri tutur.

Azərbaycan Ordusu tərəfindən sutka ərzində həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 7 ədəd T-72 tankı, 2 ədəd BM-21 “Qrad” YARS, 8 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları, döyüş sursatı ilə yüklənmiş 10 ədəd yük maşını və 7 ədəd digər avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən, döyüş əməliyyatları nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının 1-ci taboru öz mövqelərini ataraq geri çəkilib, xeyli sayda ölən və yaralanan olub.

❖ ❖ ❖

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Gəncə və Mingəçevir şəhərlərini, Tərtər, Ağdam, Bərdə və Ağcabədi rayonlarının ərazilərini atəşə tutub.

❖ ❖ ❖

Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın Gəncəyə növbəti raket hücumu ilə bağlı rəsmi instaqram səhifəsində paylaşım edib:

“Nə dərəcədə insanlıqdan uzaq, yırtıcı olmalısan ki, şəhərin heç bir hərbi infrastrukturun olmadığı yaşayış məhəllələrinə gecə vaxtı, sakinlər yatarkən raket zərbələri endirilməsi barədə növbəti dəfə əmr verəsən?

Bu gecə Gəncəyə xaincəsinə edilən hücum təkcə Ermənistan hakimiyyətinin faşist mahiyyətinə və onun prinsipsizliyinə dəlalət etmir, həm də təcavüzkarın Azərbaycan Ordusu qarşısında total acizliyinin təzahürüdür.

Dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir. Bu cinayətə laqeyd qalmaq isə onun iştirakçısına çevrilmək deməkdir!

Bu faciə nəticəsində həlak olanların ailələrinə və doğmalarına dərin hüznlə başsağlığı verirəm və bütün yaralıların tezliklə sağalmasını arzulayıram.

Ulu Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!”

❖ ❖ ❖

Prezident İlham Əliyev xalqa müraciət edərək müjdəli xəbər verib:

“Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!”

Prezident həmçinin vurğulayır ki, 17 oktyabr nəinki füzulililərin xatirəsində, Azərbaycan dövlətinin tarixində əbədi qalacaq: “Bu gün biz hamımız, bütün Azərbaycan xalqı xalqımızın, dövlətimizin ən parlaq səhifəsini yazırıq, birlikdə yazırıq. Biz bu gün həmrəylik, qarşılıqlı dəstək, birlik göstərərək bu şanlı tarixi yazırıq. Biz xoşbəxtik ki, bu anları yaşayırıq. Ancaq bu anları səbirsizliklə gözləyən, həyatdan gedən on minlərlə bizim qaçqın, köçkünümüz əfsuslar olsun ki, bu günləri görməyib. Ancaq bu gün əminəm ki, onların ruhu şaddır. Çünki onların doğma dədə-baba torpaqları işğalçılardan azad edilib”.

Ali Baş Komandan Ermənistanın baş nazirinə də yeni ismarıclarını göndərib: “Qarabağ Ermənistandır” deyən Ermənistanın baş naziri, nə oldu, indi demirsən “Qarabağ Ermənistandır”. Gəl Füzuliyə, sən orada bizim torpağımızı istismar edirdin. Gəl Cəbrayıla, gəl Hadruta, gəl azad edilmiş başqa yerlərə, de ki, “Qarabağ Ermənistandır”.



Oturmusan orada - İrəvanda, oradan bəyanatlar verirsən, dünya liderlərinin zəhləsini tökürsən, adam qalmayıb ki, telefonla zəng etməyəsən”.

❖ ❖ ❖



Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın Gəncədə törətdiyi terror aktı ilə bağlı rəsmi instaqram səhifəsində daha bir paylaşım edib. Paylaşımda deyilirdi:

“Bu gecə erməni təcavüzkarları Gəncəyə xaincəsinə hücum ediblər. Niyyət sadə və eyni zamanda dəhşətlidir - mümkün qədər çoxsaylı dinc sakinləri məhv etmək, panika yaratmaq, Azərbaycan xalqını qorxutmaq. Lakin təcavüzkar heç vaxt öz çirkin məqsədlərinə nail olmayacaq. Bu şanlı şəhərin sakinləri ruhən çox güclüdürlər! Gəncə - Nizamidir, Məhsətidir, Vazehdir! Lakin Gəncə təkcə Azərbaycanın mədəni irsi deyil.

Gəncə - qədim dövlətçiliyimizin beşiyidir.

Bu, sarsılmaz dözüm, mərdlik və igidlik rəmzidir!

Gəncə Cavadxanın yurdudur. Bu şəhər Şərqdə ilk demokratik cümhuriyyətin müstəqilliyi uğrunda sona qədər vuruşmuş şəhərdir.

Gəncə Azərbaycanın döyünən ürəyidir və heç kəs heç vaxt onun sakinlərinin məğrur ruhunu sındıra bilməz!”

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında ehtiyatdan çağırılmış 300 nəfərədək hərbi vəzifəli döyüş mövqelərini özbaşına tərk edərək geri çəkilib. Hərbi vəzifəlilərin də arasında çoxlu sayda ölən və yaralanan olub. Gücləndirmə məqsədilə alaya təhkim edilmiş xüsusi təyinatlı polis dəstəsinin üzvləri də döyüş mövqelərini tərk edərək qaçıb. Alayın bölmələrində ərzaq və döyüş sursatının çatışmazlığı müşahidə edilib.

Düşmən bölmələrində şəxsi heyətin yorğun və ümidsiz olması səbəbindən zabitlərə tabe olmama, həmçinin qorxu və təşvişə düşərək döyüşə girməkdən imtina etmə halları qeydə alınıb.

Qoşunlarımız bütün cəbhəboyu düşmənə dəqiq atəşlə zərər vurmaqla əməliyyat üstünlüyünü saxlayıb.

❖ ❖ ❖

Gün ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilib.

Azərbaycan Müdafiə Nazirliyi düşmənin S-300 zenit-raket kompleksinin, yanacaq-sürtkü materialları və döyüş sursatı anbarlarının, zirehli texnikalarının aviasiya zərbələri ilə darmadağın edilməsinin görüntülərini yayıb.

❖ ❖ ❖

Cəbrayıl istiqamətində bölmələrimizin mövqelərinə hava zərbələri endirməyə cəhd edən Ermənistan silahlı qüvvələrinə məxsus 1 ədəd Su-25 təyyarəsi hava hücumundan müdafiə bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki mövqelərimiz üzərində uçuşlar keçirməyə cəhd göstərib.

Düşmənin növbəti PUA-sı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən dərhal aşkar olunaraq məhv edilib.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Azərbaycan Elm Fondunun NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Elm Fondu (bundan sonra - Fond) təbiət, texniki, humanitar və ictimai sahələr üzrə fundamental, tətbiqi və eksperimental tədqiqatların və digər elmi tədbirlərin qrant şəklində məqsədli maliyyələşdirilməsi sahəsində (bundan sonra - müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.

1.2. Fond öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Fond öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Fond ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Fond bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Fondun müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, fondun əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Fond məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. Fond Bakı şəhərində yerləşir.

### 2. Fondun fəaliyyət istiqamətləri

2.1. Fondun fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.2. təbiət, texniki, humanitar və ictimai sahələr üzrə fundamental, tətbiqi və eksperimental tədqiqatları və digər elmi tədbirləri qrant şəklində məqsədli maliyyələşdirmək, elmi tədqiqatların keyfiyyətinin və səmərəliliyinin artırılmasını, elmi tədqiqatlara marağın gücləndirilməsini təmin etmək, müxtəlif elmi tədbirlərin təşkili üzrə layihələri dəstəkləmək;

2.1.3. elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin, elmi fəaliyyətlə məşğul olan digər hüquqi şəxslərin, o cümlədən müasir yeniliklərin tətbiq edildiyi istehsal müəssisələrinin, habelə Azərbaycan Respublikasının vətəndaşı olan fiziki şəxslərin (bundan sonra - elmi fəaliyyətlə məşğul olan hüquqi və fiziki şəxslər) elm sahəsində innovativ ideyalarını və fəaliyyətini dəstəkləmək;

2.1.4. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.5. bu Nizamnamə ilə müəyyən edilən digər istiqamətlərdə fəaliyyət göstərmək.

### 3. Fondun vəzifələri və hüquqları

3.1. Fond bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və fondun səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.3. fəaliyyət istiqamətlərinə uyğun olaraq elmi fəaliyyətlə məşğul olan hüquqi və fiziki şəxslər tərəfindən təqdim olunmuş fundamental, tətbiqi, ictimai-sosial əhəmiyyətə malik innovativ ideyaları və layihələri müsabiqələr yolu ilə dəstəkləmək, qrant maliyyələşdirilməsini təşkil və təmin etmək;

3.1.4. Azərbaycan Respublikasında elmi tədqiqatların stimullaşdırılması, ölkənin təbii resurslarının, mədəni və tarixi irsinin öyrənilməsinin gücləndirilməsi, elmin müxtəlif sahələrində aparılan araşdırmaların səmərəliliyinin artırılması məqsədilə tədbirlər görmək;

3.1.5. elm sahəsində beynəlxalq araşdırmaların aparılması, qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi, elmi tədbirlərin, o cümlədən elmin kütləviləşdirilməsi məqsədilə keçirilən tədbirlərin təşkili üzrə layihələrin dəstəklənməsi, yüksək elmi nailiyyətləri olan alimlərin həvəsləndirilməsi üçün onların mükafatlandırılması da daxil olmaqla tədbirlər həyata keçirmək;

3.1.6. Azərbaycan Respublikasının sosial-iqtisadi və elmi-mədəni inkişaf meyilləri nəzərə alınmaqla hər bir müsabiqə üzrə elmin prioritet istiqamətlərini müəyyən etmək;

3.1.7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq elmi və elmi-texniki fəaliyyətin qrant maliyyələşdirilməsinin həyata keçirilməsi məqsədilə qrant müsabiqələri təşkil etmək, o cümlədən müsabiqələrin keçirilməsi barədə elanlar vermək, onların keçirilmə müddətini, əhatə etdiyi elm sahələrini və istiqamətləri, layihələr üzrə vəsaitin miqdarını, həmçinin müsabiqənin ümumi maliyyələşdirilmə həcmini, layihələrin xarakterindən asılı olaraq tələb olunan sənədlərin siyahısını müəyyən etmək, layihələrin elektron formada təqdim olunmasını təmin etmək;

3.1.8. maliyyələşdirdiyi qrant müsabiqələrində elmi fəaliyyətlə məşğul olan hüquqi (mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq) və fiziki şəxslərin bərabər hüquqlarla iştirakını təmin etmək;

3.1.9. maliyyələşdirdiyi layihələrin maliyyə monitorinqinin aparılmasını təşkil etmək;

3.1.10. müsabiqəyə təqdim olunmuş layihələrin ideyasının obyektiv formada orijinal ifadəsini müəlliflik hüququnun obyekti kimi Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan keçirmək;

3.1.11. fond tərəfindən qrant şəklində ayrılan vəsaitin təyinatı üzrə istifadəsinə nəzarət etmək;

3.1.12. qrant ayıran yerli və xarici fiziki və hüquqi şəxslərlə birgə müsabiqələrin keçirilməsi və müsabiqənin nəticələrinə görə qalib elan edilmiş elmi-tədqiqat layihələrinin maliyyələşdirilməsi barədə qərarlar qəbul etmək;

3.1.13. qrant müsabiqəsinə təqdim edilmiş layihələrin ekspertizadan keçirilməsini və ekspertizanın nəticələri əsasında müsabiqə yolu ilə seçilməsini təşkil etmək, habelə maliyyələşdirdiyi layihələrin nəticələrinə dair rüblük, yarımillik, illik və yekun hesabatları qəbul etmək, onların qiymətləndirilməsini aparmaq, icrası başa çatmış layihələrin ekspertizadan keçirilməsini təşkil etmək;

3.1.14. elmi-tədqiqat layihələrinin dəstəklənməsi və maliyyələşdirilməsi ilə bağlı ictimai rəyin öyrənilməsini təşkil etmək;

3.1.15. qrant müsabiqəsinə təqdim edilmiş layihələrin həyata keçirilməsi üçün fondun vəsaitinin xərclənməsi istiqamətlərini müəyyən etmək və bununla əlaqədar zəruri tədbirlər görmək;

3.1.16. qrant müsabiqəsinin qalibi ilə qrant vəsaitinin istifadəsi şərtləri haqqında Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq müqavilə bağlamaq və onun qeydiyyata alınmasını təmin etmək, layihələri birdəfəlik və ya mərhələlərlə maliyyələşdirmək;

3.1.17. qrant müsabiqəsinin nəticələri barədə məlumatları açıqlamaq;

3.1.18. tətbiqi və innovativ xarakterli qrant layihələrinin maliyyələşdirilməsinə fiziki və hüquqi şəxslərin cəlb edilməsi üçün fondun imkanlarından səmərəli istifadə etmək;

3.1.19. dövlət orqanları (qurumları), beynəlxalq və qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər tərəfindən maliyyələşdirilən məqsədli proqram və layihələrin, o cümlədən dövlət proqramlarının həyata keçirilməsində iştirak etmək;

3.1.20. xarici ölkələrin nüfuzlu elmi qurumlarında və ali təhsil müəssisələrində qısamüddətli təcrübəkeçmə, eləcə də alim və tədqiqatçıların nüfuzlu regional və beynəlxalq elmi tədbirlərdə iştirakının maliyyələşdirilməsini nəzərdə tutan layihələri dəstəkləmək;

3.1.21. elmin kütləviləşdirilməsi, elmi vərdiş və bacarıqların formalaşdırılması üzrə müxtəlif tədbirlər, o cümlədən alim və tədqiqatçılar üçün təlimlər, seminarlar və digər tədbirlər keçirmək;

3.1.22. qrant layihələri yolu ilə maliyyələşdirilmiş elmi tədqiqatların ictimaiyyət üçün açıq reyestrini, habelə istedadlı alimlər, o cümlədən gənc alim və tədqiqatçılar haqqında məlumat bankı yaratmaq;

3.1.23. elmi fəaliyyətlə məşğul olan hüquqi və fiziki şəxslər tərəfindən qrant layihələri üzrə müqavilə şərtlərinin pozulması və ayrılmış qrantdan təyinatdan kənar istifadə halları aşkar edildikdə, maliyyələşdirmənin dayandırılması və verilən vəsaitin qaytarılması üçün tədbirlər görmək, müqavilə şərtlərini pozan hüquqi və fiziki şəxslərin 3 (üç) ilədək müddətə fondun keçirdiyi qrant müsabiqələrində və layihələrində iştirakına yol verməmək;

3.1.24. dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.25. müvafiq sahədə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.26. fondun fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.27. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, fondun əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.28. öz fəaliyyəti haqqında ictimaiyyətin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.29. fondun informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.30. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.31. fonda ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.32. fondun strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.33. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.34. müvafiq sahədə peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək;

3.1.35. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün fondun aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi akt layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.4. xaricdə yaşayan elmi diasporun nümayəndələrini və tanınmış xarici alimləri fondun fəaliyyətinə (elmi prioritetlərin müəyyənləşdirilməsi, layihələrin ekspertizası, məsləhətləşmələr və s.) və qrant müsabiqələrinə cəlb etmək;

3.2.5. maliyyələşdirdiyi qrant layihələri çərçivəsində müasir texnologiyaların və texnoloji həllərin seçilməsi üzrə təkliflərinin verilməsini təmin etmək;

3.2.6. elmi tədqiqatlar üçün infrastrukturun yaradılmasını, modernləşdirilməsini və ya gücləndirilməsini layihələr çərçivəsində tam və ya qismən maliyyələşdirmək;

3.2.7. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.8. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.9. fondun fəaliyyətini və maliyyələşdirdiyi qrant layihələrinin mühüm elmi nəticələrini ölkə daxilində və xaricdə təbliğ etmək, o cümlədən uğurlu layihələrin nəticələrini ayrıca toplular (kitablar) şəklində nəşr etmək;

3.2.10. yerli, regional və beynəlxalq təşkilatlara üzv olmaq;

3.2.11. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.12. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.13. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar və digər tədbirlər təşkil etmək;

3.2.14. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.15. fonda investisiyaların (sərmayələrin) cəlb olunması üçün tədbirlər görmək;

3.2.16. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.17. müvafiq sahədə dövlət orqanlarına (qurumlarına), fiziki və hüquqi şəxslərə müqavilə əsasında ödənişli xidmətlər göstərmək;

3.2.18. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.19. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 4. Fondun idarə olunması

4.1. Fond öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Fondu Müşahidə Şurası (bundan sonra - Şura) və İcraçı direktor idarə edirlər.

4.3. Şura fonda ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4. Şura onun sədri də daxil olmaqla 5 (beş) üzvdən ibarətdir. Şuranın sədrini və digər üzvlərini Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

4.5. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

4.6. Bu Nizamnamə ilə müəyyən edilən hallar istisna olmaqla, Şura qərar qəbul etməkdə müstəqildir.

4.7. Şuranın vəzifələri aşağıdakılardır:

4.7.1. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək və sənədlər (o cümlədən fondun maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.7.2. fondun inkişaf istiqamətlərini, strateji məqsəd və planlarını müəyyən etmək;

4.7.3. fondun fəaliyyətinə nəzarət etmək;

4.7.4. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, fondun strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və onların əməkhaqlarının(vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini təsdiq etmək, o cümlədən fondun əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.7.5. Azərbaycan Respublikası Prezidentinin razılığı ilə fondun təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin fondun idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.7.6. fondun maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.7.7. İcraçı direktorun fəaliyyətinə nəzarət etmək və onun fəaliyyətini yoxlamaq;

4.7.8. fondun fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.7.9. Şura üzvlərinin və İcraçı direktorun müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.7.10. fondun fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.7.11. fondun kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.7.12. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.7.13. fondun maliyyələşdirdiyi qrant müsabiqələrini elan etmək və müsabiqənin nəticələrinə görə qalib elan edilmiş layihələri müəyyən etmək, habelə müsabiqənin nəticələri barədə məlumatları dərc etmək;

4.7.14. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, fondun xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri fondun aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.7.15. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

4.8. Şuranın sədri ildə 2 (iki) dəfədən az olmayaraq Şuranın iclaslarını çağırır və iclaslara sədrlik edir. Şuranın iclaslarının keçirilməsi təşəbbüsü ilə Şuranın üzvü və ya fondun İcraçı direktoru çıxış edir. Şuranın iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasında qərarlar hər üzvün bir səsi olmaqla açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda iclasa sədrlik edənin səsi həlledici hesab edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir.

4.9. Şuranın üzvlərinə, habelə İcraçı direktora və Şuranın iclaslarına dəvət olunan şəxslərə Şuranın iclaslarının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.10. Şuranın iclasında İcraçı direktor da iştirak edə bilər.

4.11. İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.12. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.13. Şuranın iclasının nəticəsi Şura üzvlərinin və katibinin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Şura protokolu təsdiq edərək İcraçı direktora göndərir.

4.14. Şuranın katibini Şuranın üzvü olmayan əməkdaşlar sırasından Şuranın sədri təyin edir və Şuranın katibi Şuranın sədrinə hesabat verir.

4.15. Şuranın katibi:

4.15.1. Şuranın iclaslarını təşkil edir;

4.15.2. bu Nizamnamənin 4.9-cu bəndində nəzərdə tutulmuş vəzifəni icra edir;

4.15.3. Şuranın iclaslarının protokollarını tərtib edir və imzalanmaq üçün Şuranın üzvlərinə təqdim edir;

4.15.4. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılması və imzalanması üçün Şuranın sədrinə təqdim edir;

4.15.5. Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.

4.16. Şuranın sədri:

4.16.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir, habelə özünün və İcraçı direktorun qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.16.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslara sədrlik edir;

4.16.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya İcraçı direktorun xahişi əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

4.16.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.17. Şura sədri müvəqqəti olmadıqda onun səlahiyyətlərini müvafiq əmrlə Şura üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4.18. Şuranın üzvləri:

4.18.1. Şuranın səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.18.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulan materiallarla əvvəlcədən tanış olurlar;

4.18.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.18.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxmaq barədə təklif verirlər;

4.18.5. Şuranın qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.19. Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.20. Fondun cari fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İcraçı direktor rəhbərlik edir.

4.21. İcraçı direktorun onun təqdimatı əsasında Şura tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır. İcraçı direktor müvəqqəti olmadıqda, onun səlahiyyətlərini müvafiq əmrlə onun müavini icra edir.

4.22. İcraçı direktor və onun müavini adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.23. İcraçı direktorun vəzifələri aşağıdakılardır:

4.23.1. fondun fəaliyyətini təşkil edir, onun cari fəaliyyətinə rəhbərlik edir və fondu təmsil edir;

4.23.2. fondun fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.23.3. Şuranın qərarlarını icra edir;

4.23.4. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələri həyata keçirmək üçün Şuraya təkliflər verir və sənədlər təqdim edir;

4.23.5. fondun strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət edir;

4.23.6. cari və operativ məsələlər barədə Şuranı məlumatlandırır;

4.23.7. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görür;

4.23.8. aidiyyəti şəxslə dəyəri fondun aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edir;

4.23.9. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində fondun Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

4.23.10. bu Nizamnamənin 3.1.31-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə istifadə olunmasını təmin edir;

4.23.11. fondun əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasını təmin edir;

4.23.12. fondun fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.23.13. fondun işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;

4.23.14. fondun fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.23.15. bu Nizamnamə ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində fondun adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.23.16. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, fondun, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin)vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi barədə qərarlar qəbul edir;

4.23.17. özünün və fondun struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.23.18. fondun fəaliyyət istiqamətləri üzrə məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.23.19. fondda kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.23.20. fondda vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir;

4.23.21. Şuranın səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar verir.

### 5. Fondun nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Fondun nizamnamə fondu 4157866,0 (dörd milyon yüz əlli yeddi min səkkiz yüz altmış altı) manatdır.

5.2. Fondun əmlakı nizamnamə fondundan, təsisçinin ona verdiyi əmlakdan, habelə dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə edilmiş gəlirdən, ianələrdən, qrantlardan, cəlb olunan investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Fond öz əmlakından yalnız bu Nizamnamədə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Fond balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Fond qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra fondun, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Fondun məhsullarının (malların, işlərin, xidmətlərin) qiymətləri tənzimlənən qiymətlərə (tariflərə) aid deyildir.

5.6. Maddi formada verilən bütün qrantların dəyəri fond üçün maliyyə ili ərzində dövlət sifarişi əsasında ayırmaların ümumi məbləğinin 35 faizindən çox ola bilməz.

5.7. Fondun mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

### 6. Fondun fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Fondun fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Şura və İcraçı direktor həyata keçirirlər.

6.2. Fondun fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

### 7. Fondda uçot və hesabat

7.1. Fond "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Fond "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Fond idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Fond öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

### 8. Fondun ləğvi və yenidən təşkili

Fondun ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# REGİONLAR



## Salyanda su-kanalizasiya çəkilişi davam edir

**Salyan rayonunun əhalisi yüz illər boyu Kür çayının boz-bulanıq suyundan istifadə etməli olub. Bu, insanların səhhətinə mənfi təsir göstərsə də, onların başqa çıxış yolları olmayıb. Çünki Muğanın bu ərazisində ayrı bir su mənbəyi yoxdur.**

Əvvəllər əraziyə gələn qonaqlar, xarici ölkələrin nümayəndələri bu vəziyyətə təəccüb etdiklərini gizlədə bilməyiblər. Bəli, dünyanın supergücə malik olan dövlətlərindən biri sayılan SSRİ-nin dövründə vəziyyət belə idi.

"Hər şeyin zamana ehtiyacı var" deyənlər yanılmayıblar. Müstəqilliyimiz əldə olunandan sonra bir çox məsələlərlə yanaşı, əhalinin sağlamlığı, habelə keyfiyyətli su ilə təmin edilməsi prioritet məsələlər kimi ön plana çəkildi. Muğanın Salyan, Neftçala, Biləsuvar və digər rayonlarında sözügedən problemlə bağlı tədbirlər həyata keçirilməkdədir. Müvafiq layihələrə əsasən, hazırda adıçəkilən rayonların mərkəzlərinə ekoloji cəhətdən təmiz içməli su verilir. Dövlət başçısının 2021-ci ildə imzaladığı sərəncamla Salyanda bu işlər davam etdirilir. Layihə çərçivəsində indi rayon mərkəzindən kənarda yerləşən Plastmas yaşayış massivində, Dəmiryolu qəsəbəsində və Arbatan kəndində su çəkilişi işləri aparılır. Bunun ardınca köhnə Ələt-Astara yolunun kənarındakı yaşayış massivləri, Kürkənd kəndi əhalisi içməli su ilə təmin olunacaq.

Mərhələli şəkildə həyata keçiriləcək layihəyə əsasən, Salyanın digər kəndlərinə də su çəkiləcək. "Azərsu" ASC-nin məsul işçisi Rahat Salahovun dediklərindən məlum oldu ki, smeta dəyəri 55 milyon 477 min 219 manat olan layihənin 2026-cı ilin sonuna qədər başa çatdırılması nəzərdə tutulmuşdur. Eyni zamanda Kürqaraqaşlı kəndində kanalizasiya xətti çəkilərək yaxınlıqdakı qovşağa birləşdiriləcək. Qeyd edək ki, indiyədək Salyan rayonunda 38 kilometr su xətti çəkilərək 1600-ə yaxın evə su verilişi həyata keçirilib.

Layihənin podratçısı "Nord VEST" MMC-dir. Onu da öyrəndik ki, su çəkilişində yüksək təzyiqə davamlı 280, 226, 160 və 90 diametrli polietilen borulardan istifadə olunur. Tikintidə 30 nəfərə yaxın işçi çalışır. 10 ədəd texnikanın gücündən səmərəli istifadə etməklə fəhlələrdən Tural Abdullayev, Elnur Həsənov, Mirseyid və Kamil Abdullayevlər gündəlik tapşırıqlara artıqlaması ilə əməl edirlər.

*Seyran CAVADOV, "Azərbaycan"*



## Aqrar Xidmətlər Agentliyi köməyə gəlir



### "100 kənddə 100 təlim" taxılçılıqda məhsuldarlığı artırmağın yollarını öyrədir

**Bu gün aqrar sektorda çalışan fermerlərin yeni biliklərə yiyələnməyə, müasir dünya təcrübəsinin son nailiyyətlərini öyrənməyə böyük ehtiyacı var. Bu baxımdan ölkədə yaradılan aqroparklar asanlıqla müasir biliklərə yiyələnə və onları sürətlə tətbiq edə bilir. Lakin bir neçə hektar torpağı olan fermerlər və kiçik pay torpağı sahiblərinin müasir biliklərə çıxışı zəif olur və bəzən buna əlləri çatmır.**

Problemin ciddiliyi ondadır ki, dünyanın istənilən ölkəsində bütünlükdə aqrar sektorun inkişafında böyük sahibkarla, nəhəng aqroparklarla yanaşı, kiçik torpaq sahiblərinin də rolu var. Kiçik pay torpağı sahibləri müasir dünya təcrübəsinə uyğun inkişaf etməyəndə ölkənin aqrar sektorunda problemlər yarana bilər. Böyük aqroparklarla bərabər, kiçik sahibkarların da irəli getməsi aqrar sektorun müsbət dinamikasını təsdiq edən ciddi amildir. Bu mənada Aqrar Təlim Mərkəzinin "100 kənddə 100 təlim" informasiya kampaniyasına start verməsi xüsusi əhəmiyyət kəsb edir.

Məlumdur ki, bu gün aqrar sektorda ən ciddi problemlərdən biri taxılçılıqda ölkənin bir sıra rayonlarında orta məhsuldarlığın aşağı olmasıdır. Dövlət başçısı ərzaq təhlükəsizliyinin təmin edilməsində taxılçılıqda məhsuldarlığın qaldırılmasının zəruriliyini dəfələrlə qeyd etmişdir. Qeyd edək ki, "100 kənddə 100 təlim" adı altında keçirilən kampaniya Aqrar Xidmətlər Agentliyinin Aqrar Təlim Mərkəzi tərəfindən reallaşdırılmaqdadır. İnteraktiv formatda keçirilən tədbirlərin təşkilində başlıca məqsəd fermerlərin bilik və bacarıqlarının artırılmasına nail olmaqdır. Belə ki, taxılçılıqla məşğul olan kiçik fermerlər həm biliklərinin, həm də təcrübələrinin azlığından hektarın məhsuldarlığını qaldırmaqda ya acizlik edir, ya da buna fikir vermirlər. Aqrar Xidmətlər Agentliyinin əməkdaşları fermerləri müasir dünya təcrübəsi ilə maarifləndirir, payızlıq əkinlər ərəfəsində aqrotexniki tədbirlərin necə aparılması barədə tövsiyələrini verirlər. Layihənin miqyasını təsəvvür etmək üçün demək lazımdır ki, bütünlükdə ölkə üzrə 35 min fermer təlimlərə cəlb olunacaq, onların buraxdığı qüsurların aradan qaldırılması üçün maarifləndirmə işləri aparılacaq.

Layihənin tətbiq edildiyi müddət ərzində 18 rayon üzrə seçilmiş 100 kənddə Aqrar Təlim Mərkəzinin peşəkar mütəxəssisləri tərəfindən təlimlər keçiriləcək. İlk təlimlər Salyan rayonunun Kürsəngi, Xələc, Qarabağlı, Şorsulu kəndlərində və Neftçala rayonunun Aşağı Qaramanlı kəndində keçirilmişdir. Təlimlərə cəlb olunan fermerlərə bol və keyfiyyətli məhsul yetişdirməyin sirləri izah edilmişdir.

Əgər əvvəllər nə əkirdinsə, onu da biçirdinsə, indi elə deyil. Uzun illər əkilən torpağın da xüsusi qulluğa ehtiyacı var. Yüksək məhsul almaq istəyən fermer torpağın dilini bilmirsə, əkib-becərdiyi məhsul onun üzünü ağartmayacaq. Torpağı öz balan kimi əzizləyib qulluğunda dayanmalısan. Zəruri olan aqrotexniki tədbirlər, taxıl əkininin texnoloji xəritəsi, aqrotexniki tədbirlərin ardıcıllığı, səpin və gübrə norması, aqrokimyəvi analizin fermerlərə verdiyi üstünlüklər barədə biliklərə malik olmalısan. Torpaq sanki bir universitetdir, onu bütün incəlikləri və mükəmməllikləriilə anlamalısan, sertifikatlı toxumdan istifadənin məhsuldarlığa müsbət təsirini, növbəli əkin sistemini, taxıl sahələrində xəstəliklərə, zərərvericilərə və gəmiricilərə qarşı mübarizənin sirlərini beş barmağın kimi bilməlisən.

Bu təlimlərin bir üstünlüyü də ondan ibarətdir ki, fermerlərin yüksəkkeyfiyyətli sertifikatlaşdırılmış toxum və gübrələrə əlçatanlığını təmin etmək üçün təlim keçirilən kəndlərdə səyyar toxum və gübrə satışı təşkil olunur.

Payızlıq əkinlər ərəfəsində keçirilən təlimlər fermerlərə əldə etdikləri nəzəri bilikləri təcrübədə uğurla tətbiq etməyə, nəticədə mövsümü yüksək məhsuldarlıqla və daha çox gəlirlə başa vurmağa imkan yaradır. Təlimlərdə fermerlərin ehtiyaclarının müəyyən olunması ilə bağlı sorğu keçirilərək onların təklifləri qeydə alınır və onlar qarşıdakı təlimlərdə tətbiq edilir.

Bu gün ölkənin aqrar sektorunda görülən işlər belə qənaətə gəlməyə imkan verir ki, biz öyrəndiyimiz qədər bizdən də öyrənirlər. Məsələn, bu yaxınlarda Azərbaycan, Qırğızıstan, Özbəkistan və Moldovadan olan mütəxəssislər Qubada yerləşən Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutuna səfər etmiş, burada müzakirələr aparmışlar.

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) layihəsi çərçivəsində həyata keçirilən səfər zamanı qonaqlara institutun fəaliyyəti, icra olunan layihələr barədə məlumat verilmiş, xarici və yerli mütəxəssislərlə meyvə bitkilərinin seleksiyasında tətbiq edilən müasir üsullar, in-vitro üsulla bitki çoxaldılması, molekulyar biologiya və bağçılıqda tətbiq olunan innovativ texnologiyalar üzrə ətraflı müzakirələr aparılmışdır. İnstitutda fəaliyyət göstərən mikroklonal çoxaltma laboratoriyası, yeni fəaliyyətə başlayan molekulyar biologiya laboratoriyasında müvafiq cihaz və qurğular, onların iş prinsipi, yeni metod və üsullarla tanışlıq qonaqlar üçün maraqlı olmuşdur.

Bütün bunlar belə qənaətə gəlməyə əsas verir ki, aqrar sektorun ölkəmizdə inkişafı mütərəqqi üsullara və müasir dünya təcrübəsinə söykənir. Biz artıq öyrəndiyimiz qədər də öyrətmək gücünə qadirik.

*Bahadur İMANQULİYEV, "Azərbaycan"*

## Üzümçülük və Şərabçılıq ETİ Almaniya ilə əməkdaşlığı genişləndirir

Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun (ÜŞETİ) yerli üzüm sort və formalarının genetik müxtəlifliyinin müasir üsullarla öyrənilməsi məqsədilə Almaniyanın Üzümçülük (Geilweilerhof Institut) İnstitutu ilə bağladığı elmi əməkdaşlıq müqaviləsinə əsasən, birgə araşdırmalarını davam etdirir.



Müqaviləyə əsasən, üzümün molekulyar-genetik, ampelo və fenotipik deskriptorlarla, biokimyəvi və s. analizləri birgə əməkdaşlıq üzrə həyata keçirilir.

Növbəti dəfə 109 üzüm sortunun yarpaqları tədqiq olunması üçün Almaniyaya göndərilib.

Milli brendlərin istehsalı və ixrac potensialının yüksəldilməsi məqsədilə itmək təhlükəsi olan yerli üzüm sortlarının sürətli üsullarla artırılması və istehsalçıların keyfiyyətli əkin materialları ilə təmin edilməsi üçün institutun nəzdində və "Ampeloqrafik Kolleksiya bağı"nda yetişdirilən üzüm sortları tədqiqat obyekti olaraq seçilib.

Qeyd edək ki, daha öncə də Azərbaycanın üzümçülük bölgələrində aşkar olunmuş və bu günə qədər elmi əsaslarla öyrənilməyən nadir 77 yerli genotipi bağlanılmış müqavilələr əsasında Almaniyanın Üzümçülük İnstitutuna göndərilib.

Bununla əlaqədar olaraq, institut əməkdaşları tərəfindən respublikanın müxtəlif regionlarındakı köhnə üzüm bağlarında, fermer, ailə-kəndli və ev təsərrüfatlarında yetişdirilən üzüm sortları da araşdırılır. Həyata keçirilən bütün tədqiqatlar gələcəkdə əkin materialı tədarük edilməsi məqsədilə aparılır.

## Ağdaşda bitkiçilik məhsullarının istehsalı artıb

**Ağdaş rayonunda 2022-ci ilin yanvar-sentyabr aylarında kənd təsərrüfatında ümumi məhsul buraxılışı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,4 faiz artaraq 143 milyon 547 min manat təşkil edib.**



Rayon Statistika İdarəsindən AZƏRTAC-a verilən məlumatda bildirilib ki, artım aqrar sektorun əsas sahəsi olan bitkiçilikdə olub. Belə ki, cari ilin doqquz ayında bölgədə bitkiçilik məhsulları istehsalı 12,9 faiz artıb və 68 milyon 928 min manata çatıb. Doqquz ayda 74 milyon 619 min manat heyvandarlıq məhsulları istehsal edilib.

## Daha çox məhsul, daha çox qazanc

**Azərbaycan müstəqillik qazandıqdan sonra yeni iqtisadi sistemə keçidlə əlaqədar kənd təsərrüfatının effektli və gəlirli sahələrindən olan tütünçülükdə də müəyyən geriliklər yarandı. Bu sahədə zəngin təcrübə toplamış insanların əli işdən soyudu və onlar digər sahələrə üz tutdular. Nəticədə ölkə iqtisadiyyatında yeri olan tütünçülük tənəzzülə uğradı.**

Lakin Prezident İlham Əliyevin təşəbbüsü ilə kənd təsərrüfatının unudulmuş bir çox sahələri, o cümlədən tütünçülük dirçəlməyə başladı. Xüsusilə dövlət başçısının 10 avqust 2017-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci ilər üçün Dövlət Proqramı" bu sahənin inkişafına əlavə təkan verdi.



Dövlət proqramında nəzərdə tutulan tədbirlər Tovuz rayonunda da uğurla icra olunmuşdur. Proqramın icrası çərçivəsində sahəyə dövlət dəstəyinin gücləndirilməsi, rayonun potensial imkanlarından səmərəli istifadə edilməsi qısa vaxtda istehsalı xeyli artırmağa imkan vermişdir. O sırada hər hektar tütün becərilməsinə görə 280, təhvil verilən quru tütünün hər kiloqramına və yaş tütünün hər 10 kiloqramına görə 0,05 manat məbləğində subsidiya verilməsi də rayonda bu gəlirli sahənin inkişafını sürətləndirmişdir.

Əvvəlki illərdən fərqli olaraq üçüncü ildir ki, rayonda tütünçülüklə ancaq "Tovuz Aqro Sənaye" MMC məşğul olur. 250 nəfərin işlədiyi MMC keçən il yüksək göstərici əldə etmişdir. Emala nəzərdə tutulduğundan artıq məhsul təhvil verilmişdir. Cari mövsüm isə MMC əkin sahələrini iki dəfəyədək artıraraq 200 hektara çatdırmışdır. Hazırda plantasiyalarda tütün yığımı davam edir. İndiyədək yığılmış məhsulun çox hissəsi yüksək keyfiyyətlə qəbul olunmuşdur. Sahələrdə əsasən "Verciniya" tütün sortu əkilmişdir. Hər hektardan 9,9 sentner məhsul götürən kollektiv bu il 17 ton tütün istehsal edəcəyini proqnozlaşdırır.

Qeyd edək ki, tütünçülükdə əvvəllər mövcud olan bir çox problemlər aradan qaldırılmışdır. Artıq rayonda tütünqurutma müəssisəsi fəaliyyətə başlamışdır ki, bunun da nəticəsində sahələrdən yığılan yaş tütün birbaşa bu məntəqəyə təhvil verilir. Təhvil verilən yaş tütün isə müasir avadanlıqlar quraşdırılmış sexlərdə qurudularaq çeşidlənir və sonra anbarlara yığılır. Bütün bu işlərlə müəssisədə 60 nəfər məşğul olur.

Hazırda rayonda tütün yığımının qızğın çağıdır. Bu sahədə çalışan hər kəs çalışır ki, məhsulu vaxtında və itkisiz yığıb təhvil versin. Çünki bilirlər ki, daha çox məhsul, daha çox qazanc deməkdir.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## Şuşa qışa hazırlaşır

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin və "Azəristiliktəchizat" ASC-nin rəhbər şəxsləri Şuşa şəhərində mövcud olan qazanxanaların texniki və istismar vəziyyətinə baxış keçiriblər.

Onlar istifadəyə verilmiş qazanxanaların mövsümə hazır vəziyyətə gətirilməsi işləri ilə tanış olublar. Texniki baxış zamanı qazanxanaların fasiləsiz və keyfiyyətli istismarı yönündə həyata keçirilməsi zəruri olan tədbirlərə dair müzakirələr aparılıb və aidiyyəti üzrə tapşırıqlar verilib.

## İmişlidə Aqrar İnnovasiya Festivalı keçirilib

**Aqrar innovasiyaların kənd təsərrüfatı məhsul istehsalçılarına əlçatanlığının təmin edilməsi, təbliği və təşviqi məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi tərəfindən İmişli rayonunda Aqrar İnnovasiya Festivalı keçirilib.**



Festivalda Kənd Təsərrüfatı Nazirliyinin elmi tədqiqat institutları, tabeli qurumları, aqrar sahə üzrə fəaliyyət göstərən bir sıra yerli və xarici şirkətlər öz innovativ məhsul, avadanlıq və texnologiyalarını nümayiş etdiriblər.

Yeni formatda təşkil olunan bu festival sərgi və nümayiş, aqrobiznes görüşləri, panel müzakirələri, startap zonalar, təlim və məlumat sessiyaları olmaqla bir neçə bölmədən ibarət olub.

Festivalın keçirildiyi iqtisadi rayonun və ətraf bölgələrin fermerləri, məhsul istehsalçıları, aqroparkların nümayəndələri tərəfindən ziyarət olunan sərgi bölməsində kənd təsərrüfatı texnikaları, müxtəlif təyinatlı pilotsuz uçuş aparatları, pambıq əkinində tətbiq olunan yeni texnologiyalar, zərərvericilərə qarşı yeni mübarizə vasitələri, intensiv bağçılığa yararlı əkin materialları, in-vitro şəraitində yetişdirilən meyvə və tərəvəz nümunələri, üzümün emal məhsulları, innovativ suvarma texnikaları, kənd təsərrüfatı üçün alternativ enerji mənbələri, yeni təşəkkül tapmış yem bitkiləri, kənd təsərrüfatı və qida sənayesi üçün ölçü alətləri və laboratoriya avadanlıqları, heyvandarlıq sahəsi üçün tibbi, sanitar avadanlıq və dərmanlar nümayiş olunub.

Festival zamanı Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı və tərəfdaşlığı ilə keçirilmiş bir sıra startap yarışmaların, müsabiqə və hakatonların iştirakçıları, eləcə də ali təhsil müəssisələri prototipləri, məhsul və həlləri, ixtiraları nümayiş etdirilib.

Festivalda iştirak edən fermerlərə aqrar sığorta, bitkiçilik və heyvandarlıq, dəqiq əkinçilik, "ağıllı kənd" təsərrüfatı sistemləri, ən yaxşı qabaqcıl kənd təsərrüfatı təcrübələri barədə təlimlər, tədbirin keçirildiyi bölgədə kənd təsərrüfatının inkişaf etdirilməsinə hədəflənən prioritet istiqamətlər barədə məlumat sessiyaları keçirilib.

Panel müzakirələr zamanı bölgənin aqrar potensialının və perspektivinin müəyyən olunması, bölgəyə uyğun kənd təsərrüfatı sahələrinin inkişafı ilə bağlı bu sahədə ixtisaslaşmış iri şirkətlərin mütəxəssisləri öz uğurlu təcrübələrini, habelə təsərrüfatlarında tətbiq etdikləri innovativ texnologiyalar ilə bağlı məlumatları bölüşüblər.

Tədbir çərçivəsində həmçinin birgə əməkdaşlıq imkanlarının qiymətləndirilməsi və işgüzar əlaqələrin formalaşması istiqamətində biznes görüşlər keçirilib.

*Lazım QULİYEV, "Azərbaycan"*

## Lənkəranda çəltikçiliyin inkişafı məsələləri müzakirə olunub

**Lənkəran rayonunda Aqrar Xidmətlər Agentliyinin Aqrar Təlim Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan Respublikasında çəltik istehsalının inkişafına dair tədbir keçirilib.**

Aqrar Xidmətlər Agentliyinin əməkdaşları, Elmi Tədqiqat Əkinçilik İnstitutunun alimləri, Lənkəran, Astara, Masallı rayonlarından çəltikçiliklə məşğul olan fermer və sahibkarların iştirak etdikləri tədbirdə çəltik bitkisinin təsərrüfat əhəmiyyəti, ərzaq təhlükəsizliyində rolu, çəltikçilik sahəsində görülən işlər, ölkəmizdə çəltikçiliyə göstərilən dövlət dəstəyi və bu sahədə mövcud problemlər barədə məlumat verilib.

Müzakirələrdə keyfiyyətli çəltik istehsalı üçün aqrotexniki tədbirlərin vaxtında və düzgün yerinə yetirilməsi, mineral gübrələrdən səmərəli istifadə olunması, zərərvericilərə qarşı mübarizə tədbirlərinin vaxtında həyata keçirilməsi, əkin üçün yararlı torpaq sahələrinin cəlb edilməsi, texnika ilə təminatın yüksəldilməsinin vacibliyi vurğulanıb.

Tədbirdə həmçinin "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı" üzrə qarşıya qoyulmuş vəzifələr müzakirə olunub, bu sahənin inkişafı ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

Sonda fermer və sahibkarları maraqlandıran suallar cavablandırılıb.

17 Oktyabr Ümumdünya Yoxsulluqla Mübarizə Günüdür

# Yoxsulluğun azalması davamlı inkişafın təzahürüdür

*Əvvəli 1-ci səh.*

Bu gün də ölkəmizdə aztəminatlı əhali qrupunun sosial müdafiəsinə yönəldilmiş tədbirlər həyata keçirilir. İqtisadi inkişaf və büdcə gəlirlərinin davamlı artımı yoxsulluğun səviyyəsinin daha da azaldılması və ümumilikdə sosial təminat sisteminin möhkəmləndirilməsi ilə müşayiət olunur.

## Mütləq və ifrat yoxsulluq faizi sıfra bərabərdir

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qeyd edib ki, Azərbaycan yoxsulluqla mübarizə sahəsində fəal siyasətə və uğurlu təcrübəyə malikdir: "Ölkəmizdə həyata keçirilən tədbirlər sayəsində bu istiqamətdə müsbət nəticələrin əldə edilməsinə nail olunub. Azərbaycan 2000-ci ildə BMT-nin təşkilatçılığı ilə 147 ölkənin başçısı tərəfindən imzalanan Minilliyin İnkişaf Məqsədlərini əks etdirən birgə Bəyannaməyə qoşulub. Həmin sənəddə əksini tapan qlobal məqsədlərdən birincisi məhz ifrat yoxsulluq və aclıq içində yaşayan dünya əhalisinin sayının yarıyadək azaldılması olub. Xüsusi vurğulamaq lazımdır ki, Bəyannamənin imzalandığı dövrə qədər də Ulu Öndərin rəhbərliyi ilə ölkədə dayanıqlı iqtisadi inkişafa və sosial rifah səviyyəsinin yüksəldilməsinə yönəlmiş ardıcıl tədbirlər həyata keçirilib".

Komitə sədrinin sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində isə yoxsulluq 10 dəfəyə qədər azalıb.

"COVID-19 pandemiyası ilə əlaqədar son iki ildə müşahidə edilən bir faiz artım isə müvəqqəti xarakter daşıyır. Sevindirici haldır ki, ölkədə mütləq və ifrat yoxsulluq sıradan çıxıb. İfrat yoxsulluq vətəndaşın gündəlik qazancının bir dollardan, mütləq yoxsulluq isə iki dollardan aşağı olması deməkdir. Nəzərə almaq lazımdır ki, ölkəmizdə minimum əməkhaqqı aylıq 300 manat təşkil edir. Adambaşına düşən gəliri 200 manatdan aşağı olan ailələrə isə ünvanlı sosial yardım veriləræk onların da aylıq gəliri 300 manata çatdırılıb. Yəni ölkəmizdə mütləq və ifrat yoxsulluq tamamilə aradan qaldırılıb", - deyə Musa Quliyev bildirib.

Ölkəmizdə nisbi yoxsulluq səviyyəsinin dünyanın inkişaf etmiş ölkələri ilə eynilik təşkil etdiyini deyən komitə sədri bildirib ki, bu, yoxsulluqla mübarizədə müxtəlif istiqamətlərdə görülən işlərin, əməkhaqları, pensiyalar, müavinət və təqaüdlərin, demək olar ki, hər il artırılmasının nəticəsidir: "Ölkəmizdə vətəndaşların məşğulluğu təmin edilir, onları yoxsul edən səbəblərin aradan qaldırılması istiqamətində dövlət səviyyəsində genişmiqyaslı tədbirlər həyata keçirilir. Yoxsulluğun əsas səbəbləri xəstəlik, işsizlik və evsizsizlikdir. İndi icbari tibbi sığortanın tətbiqi vətəndaşların tibbi xərclərinin xeyli hissəsinin sığorta və dövlət vəsaiti hesabına ödənilməsinə səbəb olub. Digər tərəfdən, müxtəlif dövlət proqramlarının icrası, kiçik və orta sahibkarlığın inkişafına diqqətin artırılması, mütəmadi olaraq yeni iş yerlərinin açılması işsizlik probleminin həllinə töhfə verir. Aztəminatlı əhali qruplarının gəlir imkanlarını artırmaq, onların kiçik sahibkarlığa çıxışına şərait yaratmaq üçün dövlət başçısının tapşırığı ilə icra olunan özünüməşğulluq proqramı bu sahədə mühüm önəm kəsb edir. Proqram çərçivəsində aztəminatlı ailələrə fərdi təsərrüfatlarının təməlini qoymaq və ya inkişaf etdirmək üçün dövlət vəsaiti hesabına birbaşa natura şəklində mal, material və digər əmlakın verilməsi ilə dəstək göstərilir".

Musa Quliyev deyib ki, dövlət əlilliyi olan şəxslərdən, eləcə də digər həssas qruplara aid vətəndaşlardan diqqət və qayğısını əsirgəmir: "Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə DOST mərkəzlərinin yaradılması da yoxsulluğun aradan qaldırılması istiqamətində atılmış uğurlu addımlardan biridir. Həmçinin Prezidentin göstərişi ilə hər il təxminən 50-60 min ictimai-sosial iş yerləri açılır. Bütün bunlar ölkədə yoxsulluğun aradan qaldırılması üçün görülən institusional xarakterli tədbirlərdir. Ona görə yoxsulluq Azərbaycanda ən aşağı və nəzarət olunan səviyyədədir".

## Məqsəd yoxsulluğun səviyyəsini sıfra endirməkdir

Siyasi elmlər doktoru, professor, sosial məsələlər üzrə mütəxəssis Hadi Rəcəbli də cəmiyyət və dövlət quruculuğunda yoxsulluq probleminin hər zaman aktual olduğunu vurğulayıb. Onun dediyinə görə, dövlət quruculuğunun mahiyyətində vətəndaşların sosial rifah halının yaxşılaşdırılması dayanır. Yoxsulluğun aradan qaldırılması istiqamətində görülən işlərin davamlı xarakter daşıması da vacibdir.

"Azərbaycan müstəqillik qazandığı ilk illərdə bir sıra ciddi problemlərlə üzləşdi. Ölkədə mövcud olan, demək olar ki, bütün müəssisələr bağlandı, iqtisadi əlaqələr sıfra endi, ərazilərimizin 20 faizinin işğal olunması nəticəsində bir milyona yaxın qaçqın və məcburi köçkün problemi yarandı. Xalqımız, sözün əsl mənasında, faciəvi dövr yaşadı. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi xalqımızın və dövlətimizin taleyini tamamilə dəyişdi. Həyata keçirilən ciddi tədbirlər nəticəsində ölkədə yoxsulluğun səviyyəsi azalmağa başladı. Hazırda yoxsulluq faizinin olduqca aşağı olmasına baxmayaraq, Prezident İlham Əliyevin qarşıya qoyduğu məqsədlər bu göstəricinin sıfra endirilməsinə yönəlib. Sevindirici haldır ki, 44 günlük Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış başlayıb, orada yeni iş yerləri açılır, həmin ərazilərdən faydalanaraq ölkə iqtisadiyyatının daha da inkişaf etdirilməsi planlaşdırılır", - deyə professor bildirib.

Hadi Rəcəblinin sözlərinə görə, dövlət vətəndaşların aylıq maaşlarının yaşayış minimumundan xeyli çox olmasının tərəfdarıdır: "Belə olan halda, vətəndaşların sosial müdafiəsi güclənir və yoxsulluq faizi sürətlə azalır. Yaşayış minimumu bilavasitə istehlak səbəti və bazar qiymətləri ilə uyğunlaşdırılır. Minimum əməkhaqqı məbləği də buna uyğun müəyyən edilir. Beləliklə, minimum əməkhaqqı məbləğinin artırılması yoxsulluğun aradan qaldırılmasında mühüm rol oynayır. Nəzərə almaq lazımdır ki, son illərdə minimum əməkhaqqı təxminən 15-20 dəfə artırılıb. Həmçinin yoxsulluğun aradan qaldırılması üçün dövlət və özəl sektor tərəfindən iş yerlərinin açılması da önəmlidir. Yeni iş yerlərinin yaradılması ilə vətəndaşların məşğulluğunu və minimum əməkhaqqı almasını təmin etmək mümkündür".

Mütəxəssis qeyd edib ki, həssas əhali qruplarına aid vətəndaşların sosial rifah halının yaxşılaşdırılması dövlət siyasətinin prioritetlərindəndir: "Kiçik və orta biznesin inkişaf etdirilməsi də bu baxımdan vacibdir. Xüsusilə məmurlar çalışmalıdırlar ki, kiçik və orta biznesin inkişafı üçün sadə vətəndaşlara dəstək olsunlar. Dövlətin əsas məqsədi ölkədə yoxsulluğun sıfra endirilməsidir. Ona görə də Prezident İlham Əliyevin təşəbbüsü ilə vətəndaşlara əməktutumlu iş yerlərinin yaradılması ilə bağlı xüsusi güzəştli kreditlər verilir. Bu gün ölkəmizdə turizm, kənd təsərrüfatı və emal müəssisələri sektoru da inkişaf etdirilir. Yeni kütləvi iş yerlərinin açılması nəticəsində yoxsulluq səviyyəsinin minimuma endirilməsi ölkə rəhbərinin təşəbbüskarlığının nəticəsidir".

Görünən odur ki, yoxsulluq problemi qlobal səviyyədə olduğu kimi, ölkəmizdə də daim diqqət mərkəzindədir. Prezident İlham Əliyev deyib: "Azərbaycanda yoxsul adam olmamalıdır. Yoxsulluqla mübarizə bizim prioritet məsələlərimizdən biridir. Bu istiqamətdə işlər aparılır və Azərbaycanda yoxsulluğun səviyyəsi ildən-ilə aşağı düşür. Bu baxımdan, beynəlxalq təşkilatlarla birlikdə daha da ciddi işləməliyik". Dövlət başçısının uğurlu siyasi iradəsinə uyğun olaraq ardıcıl qəbul edilən dövlət proqramları, həyata keçirilən sosial islahatlar, hər il daha da gücləndirilən sosial müdafiə tədbirləri nəticəsində ölkəmizdə davamlı sosial-iqtisadi inkişaf təmin edilib. Nəticədə yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşüb, ifrat və mütləq yoxsulluq tamamilə aradan qaldırılıb.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Oktyabrın 14-ü axşam saatlarından 15-i gecə saatlarınadək Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Xəzinəvar və Basarkeçər rayonunun Günəşli yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Laçın rayonunun Hacılar və Daşkəsən rayonunun Təzəkənd yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun qeyd olunan istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.











# OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*



*Təkrar*

## "Azərişıq" ASC Salyan rayonu, 20 Yanvar, Nazim Babayev küçələrində, Arbatan kəndi ərazisində 6-10 kV-luq hava xəttinin, KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması məqsədilə açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1: Salyan rayonu, 20 Yanvar, Nazim Babayev küçələrində, Arbatan kəndi ərazisində 6-10 kV-luq hava xəttinin, KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması.**

**İştirak haqqı - 750 manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: "Kapital Bank"ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: Namiq Heybətov
Əlaqə telefonu (şəhər): 012 440 39 93 (daxili 92-19)
Elektron poçt: **namiq.heybetov@azerishiq.az**
Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi, 130, AZ1009

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə Vergi Bəyannaməsi);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki);*
- *müvafiq lisenziya və icazələr;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar;*
- *iddiaçının analoji işlərdə obyektlərin tikintisi üzrə baş podratçı qismində həyata keçirdiyi və tətbiq etdiyi uğurlu ən azı 3 layihənin bitməsinə dair tövsiyə məktubunun və apardığı layihənin ilk və sonuncu sənədlərinin surəti;*
- *podrat müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maddi-texniki bazasının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olmasını təsdiq edən sənəd;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (**www.tender.gov.az**).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **2 noyabr 2022-ci il saat 15:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **15 noyabr 2022-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **16 noyabr 2022-ci il saat 15:00-da** Mirzağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


# Sabah dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır

Azərbaycanda oktyabrın 16-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal küləyi əsəcək. Havanın temperaturu gecə 15-17°, gündüz 20-22° isti olacaq.

Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 769 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı, duman olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-17°, gündüz 19-23° isti, dağlarda gecə 3-6°, gündüz 6-10° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı, gündüz tədricən kəsiləcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 20-25° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-6°, gündüz 6-10° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı, duman olacağı gözlənilir. Yüksək dağlıq ərazilərdə sulu qar yağacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-6°, gündüz 6-10° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 9-14°, gündüz 17-21° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı, duman olacağı gözlənilir. Yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 15-19° isti, dağlarda gecə 3-7°, gündüz 7-11° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-17°, gündüz 19-23° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Dağlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 13-15°, gündüz 18-22° isti, dağlarda gecə 10-12°, gündüz 14-16° isti olacaq.

# ALLAH RƏHMƏT ELƏSİN!

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Alim Quliyevə qardaşı

**FAMİL SƏLİM OĞLU QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Hacı Ağaməmməd Məmmədov, Qambay Muradov, Rüstəm Rüstəmov, Cavid Əsədov, Ayaz və Əlikram Qasımovlar, Abid Əliyev, Muasir Abdullayev, Səttar Vəliyev, Elxan Behbudov və Rafiq Hüseynov Elxan İlyasova əzizi

**TAHİR QÜDRƏT OĞLU İLYASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6506
Sifariş 2898
Qiyməti 40 qəpik